# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

07 avqust 2026-cı il, cümə
№ 139 (7206)
Qiymət 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

# Türk Ailəsinin güclənən birliyi: Azərbaycanın liderlik missiyası



Bax səh. 3

## TDT-nin inkişafı Bakinin xarici siyasətində strateji hədəflərdəndir

## Uşaqların sosial platformalardan istifadəsi qanunla tənzimlənəcək

Azərbaycanda uşaqların sosial şəbəkələrdən istifadəsi qanunla tənzimlənəcək. Bununla bağlı ölkəmizdə müvafiq hüquqi baza yaradılır. Prezident İlham Əliyev bir qədər bundan əvvəl Milli Məclisdə qəbul olunan İnzibati Xətalar Məcəlləsində, “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” və “Uşaqların zərərli informasiyadan qorunması haqqında” qanunlarda edilmiş dəyişiklikləri təsdiqləyib. Yeni tənzimləmənin məqsədi müəyyən yaş qrupunadək uşaqların rəqəmsal mühitdə təhlükəsizliyinin gücləndirilməsi və onları zərərli məzmunun mənfi təsirlərindən qorumaqdır.

Milli Məclisdə qəbul olunan və dövlət başçısının təsdiqlədiyi İnzibati Xətalar Məcəlləsində, “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” və “Uşaqların zərərli informasiyadan qorunması haqqında” qanunlarda dəyişiklik edilməsi barədə Qanun heç bir halda ölkə ərazisində internetdən istifadənin məhdudlaşdırılması və yaxud uşaq hüquqlarının pozulması anlamında qəbul edilməməlidir. Ölkəmizdə internetə çıxış imkanlarının artırılması üçün infrastruktur getdikcə daha da müasirləşdirilir və onun əhatə dairəsi bütün ölkə üzrə genişləndirilir. 2026-cı ildə dərc edilən son ölkə...

Bax səh. 4

## 3-cü işğal...



Bax səh. 3





## Bir məktubun izi ilə...

Bəzən absurdla üz-üzə qalmaq məcburiyyəti yaşamalı oluruq - qlobal mühitdə “ziyalı” və ya dünya miqyaslı tanınmış insan görüntüsü altında Qərbin özünün bəyan etdiyi “dəyərləri” tapdayan insanlarla rastlaşırıq. İllərdir separatizmə qarşı mübarizə təbliğatını aparan Qərb dünyasının bu kimi şəxslərə münasibəti isə birmənalı deyil - nəticə etibarı ilə ortadakı situasiya bunu deməyə əsas verir. Beynəlxalq, ədalət prinsipini, bəşəri insani dəyərləri bir göz qırpımında özünün korporativ maraqlarına qurban verən bu kimi şəxslər fərqli coğrafiyalara fərqli standartlar üzərindən yanaşma sərgiləyirlər. Cənubi Qafqaza yanaşmada illərlə erməni işğalına göz yuman, susan, təcavüzkarları qoruyan, işğal faktı ilə bağlı bir cümlə belə söyləməyən bu kimi “ziyalılar” yeni reallıqlarla da barışmaq istəmir. Azərbaycanın son 6 ildə bölgədə formalaşdırdığı siyasi situasiya nətcəsində ortaya çıxan mənzərə həmin şəxslərin ürəyincə deyil - halbuki, Azərbaycan 30 ildən çox davam etmiş işğal faktını aradan qaldırmaqla yanaşı BMT TŞ-nın məlum 4 qətnaməsinin icrasını da yerinə yetirib. 2023-cü il antiterror əməliyyatı ilə isə Azərabaycan özünün suverenliyini bərpa etməklə yanaşı, illərlə seapartizm yayan, Azərbaycan qanunlarını pozan, müxtəlif cinayətlərdə günahlandırılan separatçı xunta üzvlərini ədalət mühakiməsi qarşısına çıxardı. Bu, ali hüququn təntənəsidir - cinayətkarın törətdiyi cinayətin məsuliyyətini daşıması ədalətin və hüququn qələbəsidir. Amma deyəsən, bəziləri üçün bu dəyərlər də itib...

Bax səh. 5

## Bakı Təşəbbüs Qrupu ilə əməkdaşlıq edən şəxs Hindistan kəşfiyyatının hədəfində...

Bax səh. 4

## Kiçik və orta dövlətlərin yeni dünya nizamında strategiyası



Bax səh. 6

## Razılaşma “qapıdadır”...



Bax səh. 6



# Türk Ailəsinin güclənən birliyi: Azərbaycanın liderlik missiyası

## TDT-nin inkişafı Bakinin xarici siyasətində strateji hədəflərdəndir

### Prezident İlham Əliyevin bu ilin 6 ayında səsləndirdiyi prioritetlər...

Türk dünyasının inteqrasiyası son illərdə beynəlxalq münasibətlər sistemində mühüm geosiyasi və geoiqtisadi amillərdən birinə çevrilib. Ortaq tarix, dil, mədəniyyət və mənəvi dəyərlər üzərində formalaşan bu əməkdaşlıq modeli artıq təkcə mədəni-humanitar sahə ilə məhdudlaşmır, siyasi dialoq, iqtisadi inteqrasiya, nəqliyyat-kommunikasiya layihələri, enerji təhlükəsizliyi və regional sabitliyin təmin olunması istiqamətlərində də yeni məzmun qazanır. Bu prosesdə Azərbaycan həm təşəbbüsləri, həm də praktik fəaliyyəti ilə Türk dünyasının inkişafına mühüm töhfələr verən aparıcı dövlətlərdən biri kimi çıxış edir. Yeni dövrdə Azərbaycan Türk dünyası ailəsinin ən vacib üzvlərindən birinə çevrilib. Əslində, bu Azərbaycanın uğurlu xarici siyasət kursunun real nəticəsidir - hələ 2024-cü ilin fevralında Prezident İlham Əliyev andiçmə mərasimindəki çıxışında bildirmişdi ki, “Bizim ailəmiz Türk dünyasıdır. Biz özümüzü çox yaxşı hiss edirik. Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələrlə qardaşlıq münasibətlərimiz var və bizim siyasətimiz Türk Dövlətləri Təşkilatını gücləndirməkdir. Bu, böyük coğrafiyadır, böyük ərazidir, böyük hərbi gücdür, böyük iqtisadiyyatdır, təbii sərvətlərdir, nəqliyyat yollarıdır, gənc əhalidir, artan əhalidir və bir soydan, kökdən olan xalqlardır. Bundan güclü birlik ola bilərmi? Əlbəttə ki, yox. Biz müştərək səylərlə elə etməliyik ki, Türk Dövlətləri Təşkilatı qlobal arenada önəmli aktora və güc mərkəzinə çevrilsin. Buna biz ancaq birlikdə nail ola bilərik”.

**TDT-də təhlükəsizlik və müdafiə əməkdaşlığı yeni mərhələyə keçir**

Və bu gün Azərabycanın irəli sürdüyü strateji xətt inkişaf edir. Ölkəmizin həyata keçirdiyi müstəqil və praqmatik xarici siyasət Türk dövlətləri arasında qarşılıqlı etimadın möhkəmlənməsinə, strateji tərəfdaşlığın dərinləşməsinə və ortaq maraqların beynəlxalq platformalarda daha effektiv müdafiəsinə xidmət göstərir. Xəzərdən Aralıq dənizinə, Mərkəzi Asiyadan Avropaya qədər uzanan nəqliyyat və enerji dəhlizlərinin formalaşmasında Azərbaycanın oynadığı rol ölkəmizi Türk dünyasının əsas geostrateji körpülərindən birinə çevirib. Bu baxımdan Bakı yalnız coğrafi baxımdan deyil, həm də siyasi və iqtisadi baxımdan Türk dövlətlərini birləşdirən mühüm mərkəz funksiyasını yerinə yetirir. Bakı təşkilatın funksionallığını artırmaq üzərində real iş aparır. Ötən ilin payızında Qəbələdə Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə Azərbaycan türk dövlətləri arasında hərbi əməkdaşlıq sisteminin qurulmasının vacibliyini önə sürmüşdü. İqtisadi inteqrasiya ilə yanaşı müdafiə immunitetinin güclənidirilməsi də artıq təşkilatın əsas hədəflərindən biri kimi oratya çıxır. Hələ 2023-cü ildə Astanada baş tutmuş X Astana Zirvəsində Prezident İlham Əliyevin çıxışında təhlükəsizlik, müdafiə, müdafiə sənayesi kimi sahələrdə əməkdaşlığın daha da artırılmasına ehtiyacın olmasını qeyd etməsi Türk Dövlətləri Təşkilatı üçün mühüm yol xəritəsinə çevrilmişdi. Qəbələ Zirvəsində isə bu əməkdaşlığın aydın konturları ortaya qoyulurdu. Bu ilin əvvəlində yerli televiziyalara müsahibəsində dövlət başçısı bildirmişdi ki, “Bilirəm və görürəm, dünyadakı proseslər o istiqamətdə gedir ki, hər bir ölkə ilk növbədə öz hərbi potensialını gücləndirməlidir, təhlükəsizliyini gücləndirməlidir. Hətta Yeni il bayramı ilə əlaqədar Azərbaycan xalqına təbrikimdə də demişdim, bugünkü dünya belədir: kim güclüdür, o da haqlıdır. Mənim sözlərim indi demək olar ki, həftəlik formatda bu və ya digər bölgələrdə təsdiqlənir. Qəbələdəki Zirvə Görüşündə mən bu tezisdən daha da irəli gedərək təklif etdim ki, bu il Azərbaycanda üzv ölkələrin birgə hərbi təlimləri keçirilsin. Hesab edirəm ki, buna da ehtiyac var. Biz üzv ölkələrlə ikitərəfli formatda hərbi təlimlər keçiririk. Təbii ki, ən çox Türkiyə ilə, amma digər ölkələrlə də. Ancaq birgə hərbi təlimlərin keçirilməsində həm böyük rəmzi məna ola bilər, eyni zamanda, praktik nöqteyi-nəzərdən buna ehtiyac var. Çünki yenə də deyirəm, mən bunu artıq bir neçə ildir ki, dilə gətirirəm. Həm də ki, öz təhlilimi apararaq görürəm ki, bugünkü dünyada beynəlxalq hüquq deyilən məsələ yoxdur. Bunu hər kəs gərək unutsun. Güc var, əməkdaşlıq var, müttəfiqlik var, qarşılıqlı dəstək var. Təbii ki, sən gərək özün əmin olasan ki, haqq yolundasan. Heç bir ölkə, heç bir rəhbər nahaq iş görməməlidir, heç bir ölkənin ərazi bütövlüyünə göz dikməməlidir, heç bir ölkəni işğal etməməlidir”.

**Şuşa Bəyannaməsi Türk hərbi əməkdaşlığının nümunəvi modeli kimi**

TDT-nin ümumi müdafiə sisteminin formalaşması istiqamətində Prezident İlham Əliyevin müəyyənləşdirdiyi yol xəritəsi real nümunədə ortaya qoyulur - Azərbaycan ilə Türkiyə arasında imzalanan “Şuşa Bəyannaməsi” yeni dövr üçün TDT-nin hərbi əməkdaşlıq doktrinası rolunda çıxış edə bilər. Şuşa Bəyannaməsinin yeni dövr üçün Türk hərbi əməkdaşlığının əsas istinad nöqtəsi seçilməsi isə əsaslı və arqumentlidir - müqavilə iki dövlət arasında imzalansa da, orada əksini tapan məsələlər vacibliyinə və yeni çağırışlar nöqteyi-nəzərdən kollektiv müdafiə mexanizminin yaradılmasında da iştirak etmək qabiliyyətindədir. Sənəddə beynəlxalq müstəvidə birgə fəaliyyət və əməkdaşlıq, siyasi, iqtisadi, mədəni, humanitar və digər sahələrdə əlaqələrin inkişafı, xüsusilə də hər iki ölkənin milli və birgə təhlükəsizliyi ilə əlaqədar çox vacib məsələlər əks olunub - ən əsası, Bəyannamə müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutan, milli maraq və mənafeləri müdafiə və təmin etməyə yönəlmiş müstəqil xarici siyasət həyata keçirən hər iki ölkə tərəfindən müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyənləşdirmək baxımından mühüm əhəmiyyət kəsb edir. Beləliklə, TDT üzvü olan ölkələr də özlərinin müdafiə imkanlarının inteqrasiyasını məhz bu kriteriyalar üzrə inkişaf etdirə bilərlər. Prezident İlham Əliyev ilin əvvəlində yerli televiziyalara müsahibəsində də bu məqamı önə çəkmişdi: “Biz Türkiyə ilə rəsmi müttəfiqlik formatında əməkdaşlıq edirik, o cümlədən hərbi müttəfiqlik, o cümlədən bir-birinə hərbi yardım çərçivəsində. Ancaq yaxşı olardı ki, ailəmiz olan türk dövlətləri bu istiqamətdə də əməkdaşlığa başlasınlar. Bunu təklif etməklə mən heç də hansısa hərbi təşkilatın yaradılmasını təklif etmirəm. Bəziləri bunu belə yozurlar. Yox, bu, tamamilə əsassızdır. Biz indi sadəcə olaraq, energetika sahəsində, nəqliyyat sahəsində, ticarət, investisiya qoyuluşu, bir çox sahələrdə əməkdaşlıq edirik. Nə üçün bu sahədə də əməkdaşlıq etməyək? Nəzərə alsaq ki, bu gün bütün ölkələr üçün bu, bir nömrəli məsələdir, ona görə təklifim qüvvədədir. Biz indi mesajlarımızı müxtəlif diplomatik kanallarla göndəririk. Əgər ümumi razılıq olarsa, onda biz bu il bu təlimləri görəcəyik”.

> **İlham Əliyev: Bizim ailəmiz Türk dünyasıdır. Biz özümüzü çox yaxşı hiss edirik. Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələrlə qardaşlıq münasibətlərimiz var və bizim siyasətimiz Türk Dövlətləri Təşkilatını gücləndirməkdir. Bu, böyük coğrafiyadır, böyük ərazidir, böyük hərbi gücdür, böyük iqtisadiyyatdır, təbii sərvətlərdir, nəqliyyat yollarıdır, gənc əhalidir, artan əhalidir və bir soydan, kökdən olan xalqlardır. Bundan güclü birlik ola bilərmi? Əlbəttə ki, yox. Biz müştərək səylərlə elə etməliyik ki, Türk Dövlətləri Təşkilatı qlobal arenada önəmli aktora və güc mərkəzinə çevrilsin. Buna biz ancaq birlikdə nail ola bilərik**

**Rəqəmsal inkişaf, Orta Dəhliz və Türk dünyasının gələcək vizyonu**

Bəli, birmənalı şəkildə bu gün Azərbaycan Türk dünyası ailəsinin ayrılmaz, etibarlı və fəal üzvü kimi ortaq dəyərlərin qorunmasına, həmrəyliyin möhkəmləndirilməsinə və gələcək nəsillər üçün daha güclü əməkdaşlıq platformasının formalaşdırılmasına əhəmiyyətli töhfələr verir. Ölkəmizin təşəbbüsü ilə həyata keçirilən layihələr və irəli sürülən ideyalar Türk dövlətləri arasında birliyin daha da güclənməsinə xidmət etməklə yanaşı, bütövlükdə Avrasiya məkanında sülhün, sabitliyin və dayanıqlı inkişafın təmin edilməsində də mühüm rol oynayır. Bu reallıq Azərbaycanın böyük Türk dünyası ailəsində tutduğu xüsusi yeri və artan nüfuzunu bir daha təsdiqləyir. Bu ilin mayında Türküstanda TDT-nin qeyri-rəsmi Zirvə görüşündə çıxış edən Prezident İlham Əliyev bildirmişdi ki, bu gün Türk Dövlətləri Təşkilatının beynəlxalq çəkisi artır, qlobal proseslərdə rolu və mövqeyi güclənir: “Dünya rəqəmsal inkişaf və süni intellektin yaratdığı imkanlar sayəsində yeni inkişaf mərhələsinə qədəm qoyur. Türk dövlətləri bu prosesdə ön sıralarda yer almalıdır. Azərbaycanın rəqəmsal suverenliyinin möhkəmləndirilməsi və innovasiya əsaslı iqtisadi modelə keçidin sürətləndirilməsi əsas vəzifələrimizdən biridir. Bu məqsədlə Rəqəmsal İnkişaf Şurası, Milli Süni İntellekt Mərkəzi və Süni İntellekt Akademiyası yaradılmışdır... Rəqəmsal inkişaf sahəsində türk dövlətləri ilə əməkdaşlıq uğurla davam edir. Avropa ilə Asiya arasında “Rəqəmsal İpək Yolu” layihəsi icra olunur. Bu layihənin tərkib hissəsi olan, Azərbaycan ilə Qazaxıstan arasında Trans-Xəzər Fiber-Optik Kabel xəttinin yaxın aylarda istifadəyə verilməsi planlaşdırılır. Türk dövlətləri ilə nəqliyyat sahəsində əməkdaşlığımız genişlənir. Cari qlobal geosiyasi şəraitdə Orta Dəhlizin əhəmiyyəti daha da artır. Reallaşmaqda olan Zəngəzur dəhlizi Orta Dəhlizin əsas seqmentlərindən birinə çevriləcək. Orta Dəhliz boyunca gömrük prosedurları sadələşdirilir. Türk Dövlətləri Təşkilatı çərçivəsində hazırlanmış “e-Permit” sistemi elektron icazələrin operativ şəkildə verilməsini təmin edir. Ailəmiz olan Türk dünyası XXI əsrin nüfuzlu geosiyasi güc mərkəzlərindən birinə çevrilməlidir. Azərbaycan bundan sonra da Türk Dövlətləri Təşkilatının möhkəmləndirilməsi naminə səylərini əsirgəməyəcək”.

> **Xəzərdən Aralıq dənizinə, Mərkəzi Asiyadan Avropaya qədər uzanan nəqliyyat və enerji dəhlizlərinin formalaşmasında Azərbaycanın oynadığı rol ölkəmizi Türk dünyasının əsas geostrateji körpülərindən birinə çevirib. Bu baxımdan Bakı yalnız coğrafi baxımdan deyil, həm də siyasi və iqtisadi baxımdan Türk dövlətlərini birləşdirən mühüm mərkəz funksiyasını yerinə yetirir. Bakı təşkitlatın funksionallığını artırmaq üzərində real iş aparır**

**Azərbaycan ortaq tarixi irsin və humanitar inteqrasiyanın aparıcı təşəbbüskarıdır**

Azərbaycan TDT-nin genişmiqyaslı inkişaf konsepsiyasına yalnız siyasi, iqtisadi, hərbi-müdafiə ilə bağlı töhfələr vermir. Bakı həm də Türk dünyasının dünəninin bu gününə bağlılığı istiqamətində mühüm işlər görür. Bunun ən bariz sübutu bu ilin iyulunda Bakıda baş tutmuş və Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş “Türk Dünyası Həftəsi”dir. Qeyd edək ki, “Türk Dünyası Həftəsi” Azərbaycan Prezidentinin “Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında” 22 oktyabr 2025-ci il tarixli sərəncamına uyğun olaraq təşkil edilmişdi və tədbirdə türk respublikaları daxil olmaqla, ümumilikdə 20 ölkənin müxtəlif elmi mərkəzlərindən 80 tanınmış türkoloq-alim, eləcə də türk beynəlxalq təşkilatlarından nümayəndələr qatılmışdılar. Azərbaycan Prezidenti İlham Əliyevin tədbir iştirakçılarına ünvanladığı müraciətində Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsinə dair ötən ilin oktyabrında Qəbələdə Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü zamanı irəli sürdüyü təşəbbüsün reallaşmasının məmnunluq doğurduğunu bildirib: “Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsinə dair ötən ilin oktyabrında Qəbələdə Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü zamanı irəli sürdüyüm təşəbbüsün bu gün reallaşması məmnunluq doğurur. Birinci Türkoloji Qurultayın 100 illik yubileyi ilə əlaqədar Türk Dünyası Həftəsinin Azərbaycanın Türk Dövlətləri Təşkilatına sədrliyi dövrünə təsadüf etməsinin xüsusi rəmzi mənası vardır...

Əminliklə söyləyə bilərik ki, Türk Dövlətləri Təşkilatının ortaq humanitar məkan formalaşdırmaq üçün müasir mərhələdə uğurla gerçəkləşdirdiyi layihələrin bünövrəsində Birinci Türkoloji Qurultayın vaxtilə irəli sürdüyü mütərəqqi fikirlər dayanır. Türk dünyası ailəsi böyük bir sivilizasiya yaratmış əcdadlarımızın şəninə yaraşan tərzdə əsrin nüfuzlu geosiyasi güc mərkəzlərindən biri olmaq yolundadır. Biz bu ailənin möhkəmliyi və sarsılmazlığı naminə var qüvvəmizi bundan sonra da əsirgəməyəcəyik”.

Bəli, Birinci Türkoloji Qurultayın irsini yaşatmaq, zənginləşdirmək və gələcək nəsillərə ötürmək bütün türk xalqlarının ortaq məsuliyyətidir. Azərbaycan türk dünyasında həmrəyliyin möhkəmlənməsində tarixi rolunu bu gün də böyük məsuliyyətlə davam etdirir. Bu, həm də özlüyündə TDT-nin milli dəyərlərinin yaşadılması istiqamətində vacib bir addımdır. Prezident İlham Əliyev bəyan etdiyi hədəfləri, prioritetləri uğurla həyata keçirir.

**Ortaq keçmişdən ortaq gələcək hədəflərə doğru...**

Beləliklə, müasir dövrdə Türk Dövlətləri Təşkilatının inkişaf dinamikası göstərir ki, təşkilat artıq təkcə ortaq tarix və mədəniyyət platforması deyil, həm də geosiyasi, geoiqtisadi və təhlükəsizlik baxımından beynəlxalq münasibətlər sistemində çəkisi artan əməkdaşlıq mərkəzinə çevrilməkdədir. Bu prosesdə Azərbaycanın irəli sürdüyü təşəbbüslər təşkilatın institusional güclənməsinə mühüm töhfə verir. Prezident İlham Əliyevin müəyyənləşdirdiyi strateji xətt Türk dövlətləri arasında həmrəyliyin möhkəmləndirilməsinə, qarşılıqlı etimadın artırılmasına və ortaq maraqların daha effektiv müdafiəsinə xidmət edir. Azərbaycan Türk dünyasını yalnız ortaq keçmişlə deyil, həm də ortaq gələcək hədəfləri ətrafında birləşdirən əsas mərkəzlərdən biri kimi çıxış edir. Məhz buna görə də ölkəmiz Türk Dövlətləri Təşkilatının gələcək inkişaf konsepsiyasının formalaşmasında aparıcı rol oynayır və XXI əsrdə Türk dünyasının nüfuzlu geosiyasi güc mərkəzinə çevrilməsi istiqamətində mühüm missiyanı uğurla həyata keçirir. Bu reallıq Azərbaycanın böyük Türk dünyası ailəsinin ən etibarlı, fəal və strateji əhəmiyyətə malik üzvlərindən biri olduğunu bir daha təsdiqləyir.

*Pərviz SADAYOĞLU*

# 3-cü işğal...

O məşəqqətli tarixdən 35 il ötür. İnsanlar kənddən çox çətin vəziyyətdə çıxmışdılar. Əyinlərinə münasib paltar geyinməyə, uzun illərin xatirələri dolaşan həyat-baca ilə sağollaşıb hallalaşmağa, qiymətli əşyalarını götürməyə, evlərinin qapısını bağlamağa, mal-qaranı, toyuq-cücəni rahatlamağa belə macal tapmamışdılar. Bir canlarını götürüb çıxmışdılar kənddən. Heç kəs də doğma yurd yerlərini tərk etmək istəmirdi, nəmli gözləri elə hey arxaya baxır, sanki kəndin, dağların bütün cizgilərini əbədi xatırlamaq üçün bir rəsm tablosu kimi yaddaşlarına köçürmək istəyirdilər.

Bu, Qərbi Azərbaycanın məşhur icmalarından birinin faciəsi idi. Söhbət azərbaycanlıların indiki Ermənistan ərazisindən sonuncu deportasiyasından - 1991-ci il 7 avqust tarixində Nüvədinin boşaldılmasından və uzun illər ərzində dişi-dırnağı ilə müqavimət göstərən bu yaşayış məntəqəsinin ermənilərin əlinə keçməsindən gedir. İllər ötsə də, nüvədililər həmin məşum günün yaşantılarını unutmurlar...

### Heydər Əliyev: Nüvədi camaatı çox dəyanətli insanlardır



### İlham Əliyev: Soydaşlarımız Qərbi Azərbaycana tanklarla yox, avtomobillərlə qayıdacaqlar

Təzada baxın: Son 200 ildə məkrli qüvvələr tərəfindən hazırlanan planlar, yazılan ssenarilər əsasında ermənilər dünyanın müxtəlif yerlərindən tarixi torpaqlarımıza - Qərbi Azərbaycana köçürülüblər. Qərbi Azərbaycan bizim tarixi torpağımızdır. İndiki Ermənistanın ərazisində tarix boyu azərbaycanlılar yaşayıblar. Bunu təsdiqləyən çoxsaylı sənədlər və xəritələr var. Günümüzə qədər gəlib çatan həmin xəritələrdə onlarca yaşayış məntəqələrinin adları qeyd olunub. Toponimlərin əksəriyyəti Azərbaycan mənşəlidir və bunlar əyani şəkildə təsdiqləyir ki, ermənilər bu yerlərdə sonradan məskunlaşdırılıblar.

## Bir əsrdə 4 mərhələdə reallaşdırılan dəhşətli deportasiyalar

Beləliklə, torpaqlarımızın ilhaqına başlanılıb. XX əsr bu baxımdan xalqımız üçün bir sıra faciələrlə yadda qalıb. Belə ki, ötən yüzillikdə indiki Ermənistan ərazisinin aborogen sakinləri olan azərbaycanlılar bütünlüklə öz doğma yurd yerlərini tərk etmək məcburiyyətində qalıblar. Prezident İlham Əliyev müxtəlif auditoriyalar qarşısındakı çıxışlarında azərbaycanlıların Ermənistan ərazisindən zorla çıxarılmasını "dəhşətli deportasiyalar" kimi səciyyələndirib. Soydaşlarımızın tarixi yurd yerlərindən qovulması bir neçə mərhələdə reallaşdırılıb. Belə ki, bir əsrdə 4 dəfə - 1905-1906, 1918-1921, 1948-1953 və 1987-1991-ci illərdə xalqımıza qarşı mərhələli şəkildə deportasiya və soyqırımları həyata keçirilib. Bu deportasiyalar və soyqırımları bizim tariximizin bir hissəsidir və gələcəkdə də belə faciələrlə üzləşməmək üçün tariximizi yaxşı öyrənməliyik. Beləliklə, bəzi ştrixlərə diqqət çəkmək yerinə düşər. Xatırlayaq: 1918-ci ildə yeni yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti (AXC) özünün ilk qərarlarından birində bizim tarixi şəhərimizi - İrəvanı Ermənistana faktiki olaraq hədiyyə edib. Prezident İlham Əliyev bunu çox doğru olaraq bağışlanmaz bir addım, xəyanət və cinayət kimi səciyyələndirib.

Zamanında bir çoxları düşünürdülər ki, ermənilər İrəvana sahibləndikdən və tarixi Azərbaycan ərazisində öz dövlətlərini qurduqdan sonra daha dayanacaqlar, bir daha ərazi iddialarından çıxış etməyəcəklər. Ancaq unutmamalıyıq ki, söhbət ermənilərdən - bütün düşüncələri və ruhları ilə "dənizdən-dənizə Ermənistan" mifinə uyan bir toplumdan gedir. Əlavə edək ki, bu toplumun iliyinə həm də "türkə nifrət" ideologiyası yeridilib, hər bir erməni körpəsinin ana laylası məhz bunu təlqin edir. Qeyd edək ki, bu həqiqəti Ermənistanın hazırkı rəhbərliyi də zaman-zaman dilə gətirir. Baş nazir Nikol Paşinyan dəfələrlə belə bir fikri açıq mətnlə ifadə edib ki, erməni toplumunu utopik vətən anlayışından, qonşulara qarşı əsassız iddialardan reallığa qaytarmaq lazımdır.







**Nüvədi Zəngəzurun qeyrət, mətanət qalası kimi düşmənə sinə gərib. Qüvvələr nisbəti bərabər deyildi. Nüvədililər çətinliklərə, məhdudiyyətlərə baxmayaraq, yalın əllə erməni silahlı dəstələrinə qarşı vuruşurdular, mübarizə aparırdılar. Onların mücadiləsi bir qəhrəmanlıq nümunəsi idi. Sədd heyif ki, Nüvədi köməksiz qaldı və 1991-ci il avqustun 7-dən 8-nə keçən gecə üçüncü dəfə işğal altına düşdü**

Ermənilər İrəvana sahiblənməklə kifayətlənmədilər. 1920-ci ildə keçmiş sovet hökumətinin qərarı və erməni millətçilərinin təkidi ilə bizim digər tarixi torpağımız olan Zəngəzuru da Azərbaycandan ayırıb Ermənistana birləşdirdilər. Bu, xalqımıza qarşı növbəti cinayət idi. Bunun da səbəbləri və məqsədi tam aydın idi. Birincisi, erməni millətçiləri sovet hökumətində mühüm vəzifələrdə yerləşmişdilər və siyasi qərarlar verilməsinə təsir göstərmək imkanlarına malik idilər. Zəngəzurun Ermənistana verilməsi Azərbaycanı Naxçıvandan və Türkiyədən coğrafi nöqteyi-nəzərdən ayırmaq, bununla da eyni zamanda, Türk dünyasını parçalamaq üçün atılmış bir addım idi.

İrəvanın və Zəngəzurun Ermənistana verilməsi ilə Qərbi azərbaycanlıların faciələri bitmədi - 1948-1953-cü illərdə xalqımız növbəti deportasiyaya məruz qaldı. Bu, keçmiş sovet hökumətinin Qərbi azərbaycanlılara və bütövlükdə Azərbaycan xalqına qarşı törətdiyi növbəti cinayəti idi. Bəhs olunan deportasiya mərkəzi hakimiyyətin iki qərarı əsasında reallaşıb. Azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi barədə SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il tarixli Qərarı İ.Stalinin imzası ilə qəbul edilmişdi. Fərmana əsasən, Ermənistandan 100 min nəfər azərbaycanlı əhalinin 1948-1950-ci illər ərzində köçürülməsi nəzərdə tutulurdu.

Xalq Təsərrüfatı üzrə uçot məlumatlarına və Ermənistan SSR Kənd Təsərrüfatı Nazirliyinin məlumatlarına əsasən, köçürülmə başlanmamışdan əvvəl 1948-ci ildə Ermənistanda 25 min azərbaycanlı ailəsi, yaxud 110 minə yaxın azərbaycanlı yaşayırdı. Onlardan yalnız 9 min ailə və ya 35 min nəfər aran rayonlarında, qalan 75 min nəfər isə Ermənistan SSR-in yüksək dağlıq rayonlarında yaşayırdı.

1950-ci il sentyabrın 6-da SSRİ Nazirlər Soveti "1951-1955-ci illərdə Azərbaycan SSR-in Kür-Araz ovalığının kolxozlarına köçürülmə haqqında" yeni qərar qəbul edib. Həmin qərara əsasən, müəyyən edilmiş müddət ərzində Ermənistan SSR-dən 15 min kolxozçu və digər azərbaycanlı əhalinin köçürülməsi nəzərdə tutulurdu. Azərbaycanlı əhalinin yüksək dağlıq ərazilərdən aran bölgələrinə köçürülməsi böyük faciələrə səbəb oldu. İnsanlar üçün öyrəşmədikləri şəraitdə yaşamaq dözülməz idi...

1970-1980-ci illərdə böyük siyasətçi Heydər Əliyevin respublikamıza birinci rəhbərliyi dövründə məkrli proseslərin qarşısı alındı, xalqımız Ermənistan ərazisində növbəti deportasiya və etnik təmizləməyə məruz qalmadı. Lakin 1987-ci ildə Heydər Əliyevin keçmiş ittifaq rəhbərliyindən uzaqlaşması ilə Qərbi Azərbaycanda yaşayan soydaşlarımızın növbəti qara günləri başladı. Belə ki, 1988-1991-ci illərdə azərbaycanlıların Ermənistandan deportasiyasının sonuncu mərhələsi həyata keçirildi. Ağır işgəncələrlə, çoxlu sayda insanın məqsədli şəkildə qətlə yetirilməsi ilə müşayiət olunan sonuncu etnik təmizləmə tariximizə ən amansız deportasiya kimi düşdü. Həmin dövrü xatırlayan Prezident İlham Əliyev deyib: "Heydər Əliyev 1987-ci ilin noyabrında bütün vəzifələrdən uzaqlaşdırılandan iki həftə sonra erməni millətçiləri baş qaldırdılar. Sovet hökuməti onlara dəstək oldu və həm Qarabağda, həm ovaxtkı Ermənistan Respublikasında xalqımıza qarşı növbəti cinayət başlandı. Azərbaycanlılar tarixi diyarı olan Qərbi Azərbaycandan deportasiya edildi və biz bu tarixi yaxşı bilirik, xatırlayırıq və azərbaycanlıların yaşadıqları o məntəqələrin sayını da yaxşı bilirik - 170-dən çox kənddə ancaq azərbaycanlılar yaşayırdılar. Mən

### Zəngəzurun qeyrət qalası Nüvədi 3 il müqavimət göstərsə də...

ovaxtkı Ermənistanı nəzərdə tuturam, Ermənistan Respublikasını nəzərdə tuturam, 90-a yaxın kənddə azərbaycanlılar əksəriyyət təşkil edirdilər və bütövlükdə 300-dən çox şəhər və kənddə azərbaycanlılar yaşamışlar. Onların hamısı 3 il ərzində Ermənistandan zorla çıxarıldı, qovuldu, bir çoxları öldürüldü, onlara işgəncələr verildi. Bütün bu cinayətlər sovet hökumətinin gözünün önündə baş vermişdi. Sonuncu kəndimiz Nüvədi 1991-ci ilin avqustunda deportasiyaya məruz qaldı. O da azmış kimi Qarabağda da xalqımıza qarşı cinayət törədildi".

**Nüvədililər tarixi qayıdış gününə şahidlik edəcəklərinə əmindirlər. Onlar möhkəm inanırlar ki, "Qərbi Azərbaycanda boşaldılan sonuncu kəndimiz Nüvədi" ifadəsi gün gələcək "Qərbi Azərbaycana qayıdan ilk kəndimiz Nüvədi" deyimi ilə əvəzlənəcək və biz bu ifadəni məhz Azərbaycan Prezidenti İlham Əliyevin dilindən eşidəcəyik**

Onu da qeyd edək ki, ötən yüzillikdə Nüvədi kəndi düz 3 dəfə erməni işğalına məruz qalıb. Ermənilər tərəfindən kəndə ilk hücum 1905-ci ildə baş verib. Həmin il Nüvədi camaatı kəndi tərk etməyə məcbur olub. İkinci dəfə Nüvədi 1918-ci ildə ermənilər tərəfindən yandırılıb. Kənd üçüncü dəfə 1991-ci ildə işğal edilib. Qərbi Azərbaycanda 1987-ci ildə başlayan yeni deportasiya, soyqırımı dalğası Nüvədidə dayandırılıb. Kənd camaatı düz 3 il dəyanət göstərərək, vuruşaraq, gecə-gündüz növbə çəkərək doğma el-obanı qoruyub. Təsadüfi deyildir ki, ulu öndərimiz Heydər Əliyev "Nüvədi camaatı çox dəyanətli insanlardır", - deyirdi. Nüvədililərin bildirdikləri kimi, bu qiymətin əsasında gerçək və şərəfli bir tarix dayanır. Nüvədi Zəngəzurun qeyrət, mətanət qalası kimi düşmənə sinə gərib. Qüvvələr nisbəti bərabər deyildi. Nüvədililər çətinliklərə, məhdudiyyətlərə baxmayaraq, yalın əllə erməni silahlı dəstələrinə qarşı vuruşurdular, mübarizə aparırdılar. Onların mücadiləsi bir qəhrəmanlıq nümunəsi idi. Sədd heyif ki, Nüvədi köməksiz qaldı və 1991-ci il avqustun 7-dən 8-nə keçən gecə üçüncü dəfə işğal altına düşdü.

Zamanında Nüvədidə yaşamış insanların kəndlə bağlı xatirələri çox nisgillidir. Onlar bildirirlər ki, ömrün və yaşın elə bir məqamı gəlir ki, sən doğulduğun yerə getmək, atanın məzarını ziyarət etmək istəyirsən, babanın, nənənin kəndini, ata-baba yurdunu görmək istəyirsən. Amma bu, mümkün olmur. Çünki sənin vətənin işğal altındadır...

## Böyük inam: Qərbi Azərbaycana qayıdan ilk kənd Nüvədi olacaq

İkinci Qarabağ müharibəsinədək müstəqil Azərbaycanın əsas ümummilli ideyası ərazi bütövlüyümüzün və suverenliyimizin təmin edilməsi idi. Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsinə uyğun olaraq bu məsələ daim ölkəmizin gündəliyinin mərkəzində saxlanıldı və milli güc bu istiqamətdə səfərbər edildi. 44 günlük Vətən müharibəsində və 23 saatlıq lokal xarakterli antiterror əməliyyatında qazanılan şanlı qələbələr sayəsində biz əsas ümummilli ideyamızın gerçəkləşməsinə nail olduq.

Vətən müharibəsində və lokal xarakterli antiterror tədbirlərində qazanılan qələbələrin əhəmiyyəti misilsizdir. Biz dünya erməniliyinə, Azərbaycanofob güclərə qalib gəlmişik. Ancaq Prezident İlham Əliyevin bildirdiyi kimi, biz uğurlarımızı, tarixi zəfərlərimizi uzun müddət istismar edə bilmərik. Yeni strateji mərhələdə qarşımızda digər mühüm prioritetlər dayanır. Hazırda bizim əsas ümummilli ideyalarımızdan biri zamanında indiki Ermənistan ərazisindən zorla qovulmuş azərbaycanıların tarixi yurd yerlərinə qayıdışının təmin edilməsi ilə bağlıdır. Azərbaycan dövləti və cəmiyyəti bu məsələdə israrlı yanaşma sərgiləyir.

Məğlub Ermənistan Qərbi Azərbaycandan olan insanların geri qayıdış hüququnu tanımaq istəmir. Rəsmi İrəvan Azərbaycanın bu məsələni gündəmə gətirməsini yanlış olaraq Ermənistanın ərazi bütövlüyünə təhdid anlamında təqdim etməyə çalışır. Bu, Ermənistan rəhbərliyinin əl atdığı növbəti manipulyasiyadır. Ölkəmizin heç bir qonşu dövlətin, o cümlədən də Ermənistanın ərazi bütövlüyünü pozmaq kimi bir niyyəti yoxdur. Qərbi Azərbaycandan olan insanların doğma yurd yerlərinə qayıtmaları məsələsinə gəldikdə isə bu, beynəlxalq hüquqla təsbit edilən insan haqları məsələsidir. Ermənistanın özünün də qoşulduğu bir sıra beynəlxalq konvensiyalar insanların qayıdış hüquqlarını tanıyır. Bu sıradan Ümumdünya İnsan Hüquqları Bəyannaməsini, Mülki və Siyasi Hüquqlar üzrə Beynəlxalq Paktı, Pinheiro Prinsiplərini və beynəlxalq adət hüququnu qeyd etmək mümkündür.

Biz tarixi ərazilərimizə dinc yolla qayıtmaq istəyirik. Prezident İlham Əliyevin təbirincə desək, soydaşlarımız Qərbi Azərbaycana tanklarla yox, avtomobillərlə qayıdacaqlar. O cümlədən nüvədililər də tarixi qayıdış gününə şahidlik edəcəklərinə əmindirlər. Onlar möhkəm inanırlar ki, "Qərbi Azərbaycanda boşaldılan sonuncu kəndimiz Nüvədi" ifadəsi gün gələcək "Qərbi Azərbaycana qayıdan ilk kəndimiz Nüvədi" deyimi ilə əvəzlənəcək və biz bu ifadəni məhz Azərbaycan Prezidenti İlham Əliyevin dilindən eşidəcəyik.

*Mübariz ABDULLAYEV*

# Uşaqların sosial platformalardan istifadəsi qanunla tənzimlənəcək

Azərbaycanda uşaqların sosial şəbəkələrdən istifadəsi qanunla tənzimlənəcək. Bununla bağlı ölkəmizdə müvafiq hüquqi baza yaradılır. Prezident İlham Əliyev bir qədər bundan əvvəl Milli Məclisdə qəbul olunan İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanunlarda edilmiş dəyişiklikləri təsdiqləyib. Yeni tənzimləmənin məqsədi müəyyən yaş qrupunadək uşaqların rəqəmsal mühitdə təhlükəsizliyinin gücləndirilməsi və onları zərərli məzmunun mənfi təsirlərindən qorumaqdır.

## Yeni tənzimləmə qaydasına keçidi zəruri edən amillər

Milli Məclisdə qəbul olunan və dövlət başçısının təsdiqlədiyi İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanunlarda dəyişiklik edilməsi barədə Qanun heç bir halda ölkə ərazisində internetdən istifadənin məhdudlaşdırılması və yaxud uşaq hüquqlarının pozulması anlamında qəbul edilməməlidir. Ölkəmizdə internetə çıxış imkanlarının artırılması üçün infrastruktur getdikcə daha da müasirləşdirilir və onun əhatə dairəsi bütün ölkə üzrə genişləndirilir. 2026-cı ildə dərc edilən son ölkə hesabatına əsasən, Azərbaycanda internet istifadəçilərinin sayı 9 milyon 270 min nəfərə, yəni, ölkə əhalisinin təxminən 89 faizinə çatıb. Azərbaycanda 7 milyon 610 min sosial media istifadəçi identifikatoru qeydə alınıb. Başqa sözlə, təkrar və xaricdən qoşulma amilini nəzərə aldıqda, ölkəmizin hər on sakinindən səkkizi rəqəmsal məkandadır. Onlar internet vasitəsilə bank əməliyyatları aparır, dövlət xidmətləri alır, vergilərini ödəyir, tibbi məlumatlarını əldə edir, təhsil alır və şəxsi ünsiyyət qururlar.

Eləcə də müvafiq Qanun qəbul edilməsi ilə ölkədə uşaq hüquqlarının guya hansısa bir formada pozulması ilə bağlı müəyyən qüvvələrin dövriyyəyə buraxdıqları şayiələrin heç bir əsası yoxdur. Ölkəmizdə uşaqlara qayğı siyasəti geniş əhatə dairəsinə malikdir və bu siyasət ardıcıl səciyyə daşıyır. Ölkənin iqtisadi inkişaf tempi Dayanıqlı İnkişaf Məqsədlərinə uyğun olaraq aztəminatlı ailələrdən olan, eləcə də sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların hərtərəfli inkişafı istiqamətində tədbirlərin gücləndirilməsinə imkan verir. "Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası" ölkəmizdə uşaq hüquqları sahəsində mövcud hüquqi bazanı təkmilləşdirməklə, uşağın hüquqlarının müdafiəsinin işlək mexanizminin yaradılması, erkən uşaqlıq dövründə onların inkişafına dövlət dəstəyi göstərilməsi, çətin həyat şəraitində olan uşaqların müdafiəsi, uşaqların sağlam mühitdə böyüməsi və tərbiyəsi, uşaqlarla bağlı həyata keçirilən tədbirlərin monitorinqi və qiymətləndirilməsi sisteminin inkişafı kimi əsas istiqamətləri və bütövlükdə milli səviyyədə uşaq siyasətinin əsas hədəflərini müəyyən edir. Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planı uğurla reallaşdırılıb. Həmçinin 1998-ci ildə qəbul olunan "Uşaq hüquqları haqqında" Qanun ölkədə uşaqların hüquqlarının təmin olunmasına geniş imkanlar açır.

Yeni tənzimləmə mexanizmi hazırlanarkən də bilavasitə uşaqların mənafeyi nəzərə alınıb. İndiki dövrdə internet, o cümlədən də sosial şəbəkələr üzərindən kibercinayətkarlığın nə qədər geniş vüsət aldığı hər kəsə bəllidir. Təhlükələrin miqyası o qədər böyükdür ki, onlayn platformalar hətta siyasi, iqtisadi, hərbi təsir alətlərinə çevrilib. Daha hansısa bir dövlətə ağır zərbə vurmaq üçün həmişə onun ərazisinə qoşun yeritmək tələb olunmur. Bəzən zərərli bir kod ölkənin enerji, bank, rabitə, nəqliyyat sistemlərinə, xəstəxanalarına və idarəetmə strukturlarına ənənəvi silahdan az olmayan zərər vura bilər.

Uşaqlarla vəziyyət isə daha ciddidir. Sosial şəbəkələr hüdudsuz bir məkandır və burada uşaqlar ən müxtəlif kontentlərlə qarşılaşa bilərlər. Sosial şəbəkələr üzərindən uşaqlara zərəli təsirlərin ötürülməsindən bəhs etdikdə xüsusilə də zorakılıq, aqressiya, nifrət nitqi, saxta məlumatlar, yaşa uyğun olmayan reklamlar və vizual materiallar nəzərdə tutulur. Uşaqlar sosial şəbəkələrdə həmçinin kibertəhlükəsizlik, ailə sirlərinin ötürülməsi, təhqir, mənəvi zorakılıq, pis vərdişlərə çağırışlar və digər belə hallarla üz-üzə qalırlar. Dünyagörüşləri tam formalaşmayan uşaqlar bu təzyiqlərin gerçək məzmununu anlamaqda və düzgün qərar çıxarmaqda acizdirlər. Onlar uzun müddət əl telefonlarından, kompüterlərdən aldıqları təsirlərdən yaxa qurtara bilmirlər və beləliklə də psixoloji sıxıntılara məruz qalırlar. Bir çox hallarda sosial şəbəkələr uşaqlarda asılılıq sindromu yaradır və onlar özlərinə qapanırlar. Belə uşaqlar üçün real həyatda sosiallaşma çətinləşir, onlar düşdükləri yeni mühitdə ünsiyyət qura bilmirlər. Uşaqların sosial şəbəkələrdən istifadəsinin qanunla tənzimlənməsinə keçid edilməsi də bu kimi reallıqlardan yaranan bir zərurətdir. Ölkəmizdə uşaqların sosial şəbəkələrdən istifadəsinin qanunla tənzimlənməsinə




keçid edilməsi Azərbaycan dövlətinin uşaq siyasətinə son dərəcə həssas yanaşmasının növbəti ifadəsidir.

## Hansı şərtlər tətbiq olunacaq?

Yeni tənzimləmə qaydası 12 aydan sonra qüvvəyə minəcək. Müvafiq hüquqi bazanın yaradılmasının dövlət başçısı tərəfindən təsdiqlənməsi respublikamızda uşaqların sosial şəbəkələrin zərərəli təsirlərindən qorunması kimi aktual məsələyə həssas yanaşmasının ilk ifadəsi deyil. Xatırladaq ki, Prezident İlham Əliyev 27 fevral 2026-cı il tarixində "Uşaqların rəqəmsal mühitdə zərərli məzmun və təsirlərdən qorunması ilə bağlı tədbirlər haqqında" ayrıca Sərəncam imzalayıb. Sənəddə vurğulanır ki, sosial münasibətlərin sürətlə rəqəmsallaşması və sosial şəbəkələrin uşaqların gündəlik həyatına getdikcə daha erkən yaşda daxil olması, həmin şəbəkələr vasitəsilə informasiyanın istehsalı, yayılması və istehlakının miqyasının artması bu sahədə hüquqi tənzimləmənin mövcud vəziyyətinin müasir texnoloji, sosial və təhlükəsizlik çağırışları baxımından təhlilini və təkmilləşdirilməsini zəruri edir.

Milli Məclisdə qəbul olunan Qanun bu sahədə dövlət siyasətinin ardıcıllığını təsdiqləyir. Bəhs olunan qanunla 16 yaşadək uşaqların sosial platformalarda hesab yaratmasına yol verilmir, 16-18 yaş arası uşaqlar isə bunu valideyn icazəsi ilə edə bilərlər. Yeni tənzimləmə qaydası dövlət tərəfindən uşaqların müdafiəsinin gücləndirilməsi, onların gələcəyinə qayğının davam etdirilməsi, uşaqların yetkinlik yaşına çatana qədər sosial şəbəkə mühitində fəaliyyət üçün hazırlanması, daha sonrakı dövrdə isə valideyn nəzarəti ilə icazə verilməsi və digər müsbət məqamları əks etdirir. Uşaqların zərərli təsirlərdən qorunması, onların sağlam böyüməsi üçün hərtərəfli şəraitin yaradılması və dəstəyin verilməsi dövlətin sosial siyasətinin tərkib hissəsidir. Bu məsələ fərd, ailə, cəmiyyət və dövlət üçün mühüm əhəmiyyət daşıyır. Bu məqamda qeyd etmək yerinə düşər ki, uşaqların hüquqları qorunmaqla onlara münasibətdə digər sahələrdə də yaş məhdudiyyətləri var (uşaqlara siqaret, alkoqol, soyuq silah (bıçaq) satışına, pornoqrafik məzmunlara çıxışına məhdudiyyət və s.) və bu tədbirlər uşaqların sağlamlığı və rifahı üçün tətbiq olunub. Müasir rəqəmsal dövrdə bu mexanizm sosial platformalara münasibətdə də öz əksini tapmalıdır.

## Getdikcə daha çox ölkədə uşaqların sosial platformalardan istifadəsinə qanunla məhdudiyyətlər qoyulur

Azərbaycanda uşaqların sosial şəbəkələrdən istifadəsinin tənzimlənməsi ilə bağlı qanun layihəsi hazırlanarkən beynəlxalq təcrübəyə istinad olunub. Dünya ölkələrində uşaqların sosial şəbəkələrdən istifadəsinin qanunla tənzimlənməsinə fərqli yanaşmalar sərgilənir. Getdikcə daha çox ölkədə uşaqların sosial platformalardan istifadəsinə qanunla məhdudiyyətlər qoyulur. 2025-ci ilin dekabrında Avstraliyada müvafiq qanun qəbul edilib. Fransa 2026-cı ilin yanvar-mart aylarında uşaqların sosial şəbəkələrdə olmasına yaş məhdudiyyəti tətbiq edən dünyada ikinci, Avropada birinci dövlət olub. Hazırda müxtəlif ölkələrdə müxtəlif yaşdan belə tənzimləmələrin tətbiqi imkanlarına baxılır. Danimarkada 18, İspaniyada 16, Fransada 15, ABŞ-da federal səviyyədə 17, ştatlarda isə Kaliforniya, Texas, Nyu-York, Tennessi və Yutada 18, Kolorado, Corciya, Luizianada 16, Floridada 14 yaş məhdudiyyətləri, eləcə də İrlandiyada OnlineSafetyCode və Böyük Britaniyada Online-Safety Act kimi yanaşmalar mövcuddur. Almaniya, Portuqaliya, Norveç, Türkiyə, Kanada, Yeni Zelandiya, Malayziya, İndoneziya və Hindistan sosial şəbəkə platformalarında yaş məhdudiyyətləri müəyyənləşdirmək üçün qanunvericilik qərarları qəbul edib və ya etməkdədir. Qonşularımız olan Qazaxıstan və Özbəkistanda da analoji qanunvericilik təşəbbüsləri mövcuddur. Norveç 2026-cı ilin sonuna qədər sosial media platformaları üçün yaş məhdudiyyətləri tətbiq etməyi planlaşdırır.

## Provayderlərin məsuliyyəti artırılır

Yeni tənzimləmə mexanizminə əsasən, provayderlərin məsuliyyəti artırılır və onların qarşısına bir sıra tələblər qoyulur. O cümlədən provayder istifadəçi yaşının yoxlanılması məqsədilə topladığı fərdi məlumatlarla bağlı aşağıdakı fəaliyyətləri həyata keçirə bilməz:

- onları öz informasiya sistemində saxlamaq və ya üçüncü şəxslərə ötürmək;
- onlardan yaşın yoxlanılması istisna olmaqla, kommersiya, hədəfli reklam (konkret istifadəçiyə yönəln) və ya digər məqsədlər üçün istifadə etmək.

Bundan başqa,

-provayder bu Qanunda qeyd olunan yoxlama prosesi başa çatdıqda dərhal toplanılmış fərdi məlumatların silinməsini təmin etməlidir,

-provayder fərdi rəqəmsal hesabı olan şəxsin yetkinlik yaşına çatanadək yerləşdirdiyi məlumatların, paylaşdığı məzmunun və fərdi məlumatlarının özünün, yetkinlik yaşına çatmadığı halda qanuni nümayəndəsinin və ya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müraciəti əsasında, həmçinin daxili qaydalarında müəyyən edilmiş hallarda öz təşəbbüsü ilə silinməsini təmin etməlidir,

-16-18 yaş arası uşaqların həyatına, sağlamlığına, cinsi toxunulmazlığına, şərəfinə, ləyaqətinə və qanunla qorunan digər hüquq və azadlıqlarına təhlükə yaradan zərərli məzmunların yayılmasının qarşısının alınması üçün provayder platformada fasiləsiz rejimdə fəaliyyət göstərən və operativ müdaxiləni təmin edən rəqəmsal həlləri tətbiq etməlidir. Belə halların qarşısının alınması üzrə provayderin texniki müdaxilə müddəti zərərli məzmunun aşkar edildiyi andan etibarən 24 saatdan artıq olmamalıdır,

-provayderlər bu Qanun qüvvəyə minənədək yaş məhdudiyyəti tətbiq edilən sosial şəbəkə platformalarında (və həmin platformalarda yaradılan fərdi rəqəmsal hesablarda) yaş həddinin müəyyən edilməsi ilə bağlı rəqəmsal həllərin tətbiqi üçün texniki imkanları təmin etməli və bu barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat verməlidirlər,

-provayderlər bu Qanun qüvvəyə mindikdən sonra 16 yaşdan aşağı uşaqlara məxsus mövcud fərdi rəqəmsal hesablara girişin məhdudlaşdırılmasını, şəxsin 16 yaşının tamam olmasını təsdiq edən məlumat təqdim edilmədikdə həmin hesabların və fərdi məlumatlarının silinməsini təmin etməli və bu barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat verməlidirlər.

## Dünya siyasətçilərinin narahatlığı

Yeri gəlmişkən, dünya miqyasında tanınan siyasətçilər də uşaqlar üçün sosial şəbəkələrdən gözlənilən risklərə diqqət çəkiblər və öz narahatlıqlarını ifadə ediblər. "Bəzi rəqəmsal paylaşma tətbiqlərinin uşaqlarımızın zehnini pozduğu və sosial media platformalarının, açıq desək, zibilxanalara çevrildiyi bir dövrdə yaşayırıq. İnternetin nəzarətsiz və sərhədsiz dünyasına alqoritmlərin manipulyativ gücünü əlavə etdikdə mürəkkəb bir problem ortaya çıxır", - deyə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan vurğulayıb.

Artıq Avropa rəsmiləri də sosial şəbəkələrin uşaqlar və yeniyetmələr üçün ciddi təhlükələr yaratmasından narahatlıqlarını gizlətmirlər. Bununla bağlı mövqeyini bildirən Avropa Komissiyasının prezidenti Ursula Fon der Lyayen deyib: "Məsələ gənclərin sosial mediaya çıxışının olub-olmamasında deyil. Məsələ sosial medianın gənclərə çıxışının olub-olmamasındadır".

Norveçin Baş naziri Jonas Gar Store isə bildirib ki, biz bu qanunvericiliyi uşaqların uşaq kimi yaşaya biləcəyi bir uşaqlıq dövrü istədiyimiz üçün tətbiq edirik. Oyun, dostluq və gündəlik həyat alqoritmlər və ekranlar tərəfindən ələ keçirilməməlidir. Bu, uşaqların rəqəmsal həyatını qorumaq üçün vacib bir tədbirdir. İspaniyanın Baş naziri Pedro Sançez da narahatlığını dilə gətirib. O, "Real dünyada qanuni olmayan şey virtual dünyada qanuni ola bilməz", - deyə bildirib.

*Mübariz FEYİZLİ*

---

## BMT qanlı sui-qəsd planını ifşa etdi

# Bakı Təşəbbüs Qrupu ilə əməkdaşlıq edən şəxs Hindistan kəşfiyyatının hədəfində...




Bakı Təşəbbüs Qrupu (BTQ) ilə sıx əməkdaşlıq edən Kanada Siqh Federasiyasının sədri, tanınmış hüquq müdafiəçisi Moninder Singh Bualın beynəlxalq təşkilatlara ünvanladığı müraciət və təqdim etdiyi rəsmi sənədlər, habelə onun və ailəsinin həyatına yönəlmiş birbaşa sui-qəsd planları və transmilli repressiya faktları beynəlxalq müstəvidə ciddi müzakirələrə səbəb olub.

Bu barədə Bakı Təşəbbüs Qrupundan məlumat verilib.

Məlumatda, həmçinin bildirilib: "BMT Xüsusi məruzəçilərinin hesabatına əsasən, Moninder Singh Bual siqhlərin öz müqəddəratını təyinetmə hüquqlarını beynəlxalq platformalarda müdafiə etdiyi üçün 2022-ci ildən bəri Kanada təhlükəsizlik orqanlarından rəsmi olaraq dörd dəfə "ölüm təhlükəsi barədə xəbərdarlıq" alıb. Sonuncu dördüncü rəsmi bildiriş 2026-cı il fevralın 22-də birbaşa onun evinə göndərilib və Kanada kəşfiyyat orqanlarının kifayət qədər ciddi qiymətləndirdiyi bu sui-qəsd planlarında ilk dəfə olaraq təkcə fəalın özü deyil, onun həyat yoldaşı və iki azyaşlı övladı da birbaşa hədəf olaraq göstərilib. Hesabata əsasən, bu gizli sui-qəsd cəhdi Hindistan dövlətinin BMT xüsusi mexanizmləri ilə əməkdaşlıq edən dissidentləri və hüquq müdafiəçilərini istənilən coğrafiyada fiziki olaraq məhv etmək strategiyasının bariz nümunəsidir və fəalın BMT-nin İnsan Hüquqları Şurasının 61-ci sessiyasında iştirak etmək üçün Cenevrəyə yola düşməsindən əvvəl olması təsadüfi xarakter daşımır

Yaranmış kritik vəziyyətlə bağlı BMT-nin insan hüquqları, terrorizmlə mübarizə, sərbəst toplaşmaq azadlığı və din azadlığı üzrə 5 xüsusi məruzəçisi və eksperti Kanada hökumətinə rəsmi etiraz və çağırış məktubu ünvanlayıb. BMT rəsmiləri Moninder Singh və ailəsinin üzləşdiyi təhlükəni birbaşa Hindistan hakimiyyətinin və kəşfiyyat orqanlarının xarici ölkələrdə həyata keçirdiyi qanunsuz transmilli repressiyanın, sifarişli qətllərin və intiqam tədbirlərinin bir hissəsi adlandırıblar. Məktubda eyni xəbərdarlığı alan digər siqh fəalı Hardeep Singh Nijjarın 2023-cü ildə Kanada torpağında Hindistanın gizli agentləri və mütəşəkkil cinayətkar qrupları tərəfindən qətlə yetirilməsi xatırladılaraq, rəsmi Dehlinin suveren ölkələrin ərazisində həyata keçirdiyi dövlət terroruna qarşı Kanadanın davamlı sayıqlıq nümayiş etdirməməsindən ciddi narahatlıq ifadə olunub. Sənədlər sübut edir ki, Hindistan hökuməti öz daxilindəki etnik və dini azlıqların fundamental haqlarını boğmaqla kifayətlənməyərək, qərb ölkələrində yaşayan və fəaliyyət göstərən siqh fəallarını da qeyri-qanuni casusluq, şantaj və terror metodları ilə susdurmağa çalışır.

BMT ekspertlərinin rəsmi sənədinin tam mətni ictimaiyyətə açıqlandıqdan sonra dünya mətbuatının əsas gündəm mövzusuna çevrilib. Böyük Britaniyanın "The Guardian" qəzeti, eyni zamanda, Kanadanın "CBC News", "Global News" və Britaniyanın "The Independent" kimi aparıcı media agentlikləri də mövzuya geniş yer ayıraraq, Hindistan kəşfiyyat şəbəkələrinin suveren dövlətlərin daxili təhlükəsizliyini pozmasını, siqh fəallarına qarşı Avropa və Şimali Amerikada gizli sui-qəsd və




təhdid şəbəkələri qurmasını kəskin tənqid atəşinə tutublar".

Xatırladaq ki, Bakı Təşəbbüs Qrupunun sosial şəbəkə profilləri və saytı da mütəmadi olaraq Hindistan mənşəli kiberhücumlara məruz qalır.

# Bir məktubun izi ilə...

## Qərb dəyərlərini təbliğ edənlərin Vardanyan "sevgisi"

### Müharibə cinayətkarını müdafiə etməyin "qiyməti"...

Bəzən absurdla üz-üzə qalmaq məcburiyyəti yaşamalı oluruq - qlobal mühitdə "ziyalı" və ya dünya miqyaslı tanınmış insan görüntüsü altında Qərbin özünün bəyan etdiyi "dəyərləri" tapdayan insanlarla rastlaşırıq. İllərdir separatizmə qarşı mübarizə təbliğatını aparan Qərb dünyasının bu kimi şəxslərə münasibəti isə birmənalı deyil - nəticə etibarı ilə ortadakı situasiya buna deməyə əsas verir. Beynəlxalq, ədalət prinsipini, bəşəri insani dəyərləri bir göz qırpımında özünün korporativ maraqlarına qurban verən bu kimi şəxslər fərqli coğrafiyalara fərqli standartlar üzərindən yanaşma sərgiləyirlər. Cənubi Qafqaza yanaşmada illərlə erməni işğalına göz yuman, susan, təcavüzkarları qoruyan, işğal faktı ilə bağlı bir cümlə belə söyləməyən bu kimi "ziyalılar" yeni reallıqlarla da barışmaq istəmir. Azərbaycanın son 6 ildə bölgədə formalaşdırdığı siyasi situasiya nətcəsində ortaya çıxan mənzərə həmin şəxslərin ürəyincə deyil - halbuki, Azərbaycan 30 ildən çox davam etmiş işğal faktını aradan qaldırmaqla yanaşı BMT TŞ-nın məlum 4 qətnaməsinin icrasını da yerinə yetirib. 2023-cü il antiterror əməliyyatı ilə isə Azərbaycan özünün suverenliyini bərpa etməklə yanaşı, illərlə separatizm yayan, Azərbaycan qanunlarını pozan, müxtəlif cinayətlərdə günahlandırılan separatçı xunta üzvlərini ədalət mühakiməsi qarşısına çıxardı. Bu, ali hüququn təntənəsidir - cinayətkarın törətdiyi cinayətin məsuliyyətini daşıması ədalətin və hüququn qələbəsidir. Amma deyəsən, bəziləri üçün bu dəyərlər də itib...

### Müharibə cinayətkarı, yoxsa hərbi əsir...

Söhbət müharibə cinayətlərində ittiham olunaraq qanun qarşısında cavab verən, məhkəmə qərarı ilə həbs olunan Ruben Vardanyandan və onun "çətiri" olmağa çalışan Nyu-York Universitetinin professoru yazıçı Nassim Nikolas Talebdən gedir. Hansı ki, bu "professor" Ruben Vardanyanın "xeyriyyəçiliklə" bağlı sistemli illüziyaları ilə bağlı "yüksək fikirdədir" və bu fikirləri də tirajlayır. Adını "professor" qoymuş bu şəxs "hərbi əsir" anlayışı ilə "müharibə cinayətkarı" anlayışını qarışdırır. Gəlin ilk öncə bu anlayışlara bir aydınlıq gətirək:

- Hərbi əsir: silahlı münaqişə zamanı qarşı tərəfin silahlı qüvvələrinin üzvü olub əsir götürülən şəxsdir. Onun statusu 1949-cu il Üçüncü Cenevrə Konvensiyası ilə tənzimlənir. Hərbi əsirlər işgəncəyə və qeyri-insani rəftara məruz qala bilməz (ümumiyyətlə, Vətən müharibəsi dövründə və ondan sonrakı dövrdə Azərbaycanda olan ermənilərin heç biri deyə bilməz ki, onlar hansısa işgəncəyə məruz qalıblar), lazımi qida, tibbi yardım və yaşayış şəraiti ilə təmin edilirlər.

- Müharibə cinayətkarı: müharibə zamanı beynəlxalq humanitar hüququ ciddi şəkildə pozaraq müharibə cinayətləri törətməkdə ittiham olunan və ya təqsirli bilinən şəxsdir. Belə əməllərə mülki şəxslərin qəsdən öldürülməsi, işgəncə, girov götürmə, əsirlərlə qəddar rəftar, qanunsuz deportasiya və digər ağır pozuntular daxildir. Vardanyan və onunla birgə ədalət mühakiməsi qarşısında cavab verən separatçılar isə müharibə dövründə Gəncədə, Bərdədə törədilmiş qətliamların, cinayətlərin, dinc və günahsız insanların ölümü ilə nəticələnən teraktların birbaşa sifarişçisi və icraçılarıdırlar.

Beləliklə, "professor" Nikolas Taleb bilməlidir ki, müharibə cinayətkarı konkret cinayət törətməkdə ittiham olunan və ya məhkəmə tərəfindən təqsirli bilinən şəxsdir. Bu iki anlayış beynəlxalq hüquqda fərqli məna daşıyır və bir-biri ilə qarışdırılmamalıdır. Ruben Vardanyanın siyasi kimliyi isə hər kəsə bəllidir - nəinki Azərbaycan cəmiyyəti, dünya ictimaiyyəti onun kimliyini, vaxtilə Qarabağa hansı məqsədlərlə gəldiyini, hətta hansı təxribatçı əməllər törətdiyini yaxşı bilir. Vardanyan 2022-ci ilə kimi Rusiya vətəndaşı, erməni lobbizminə pul ayıran milyarder kimi tanınıb. O, 2022-ci il sentyabrın 1-də Rusiya vətəndaşlığından imtina edərək Qarabağa köçüb və burada qondarma rejimin "dövlət naziri" kimi fəaliyyət göstərməyə başlayıb. Müharibə dövründə isə separatçıların əsas rəhbərlərindən biri olub. Bu adam əgər "xeyriyyəçi" idisə, onun Qarabağda nə işi vardı? Demək ki, burada söhbət sırf siyasi və hərbi maraqlar güdməkdən gedir, Vardanyan məhz cinayətkar fəaliyyətinə görə də həbs olunub.

### "Professor"a cavab...

Yeri gəlmişkən, Amerika Hərbi Dəniz Qüvvələri və Hərbi Hava Qüvvələri tərəfindən istifadə edilən ixtisaslaşdırılmış materiallar istehsal edən yeganə türk mühəndis, "Integrated Polymer Industries" şirkətinin qurucusu, B-2 bombardmançı təyyarələri üçün görünməzlik təmin edən örtük materiallarının müəllifi, tədqiqatçı yazıçı Ergün Kırlıkovalı Nyu-York Universitetinin professoru yazıçı Nassim Nikolas Talebə Ruben Vardanyanın "xeyriyyəçiliklə" bağlı sistemli illüziyalarına dair məktub ünvanlayıb. Məktubda bildirilib ki, "Sizə X sosial şəbəkəsində Ruben Vardanyanın həbsdə qaldığı müddətdə Bakıda mühazirə oxumaqdan imtina etdiyinizi bildirdiyiniz son ictimai bəyanatınızla əlaqədar müraciət edirəm. Karyerasını gizli maliyyə riskləri, narrativ yanlışlıqlar və sistemli "korluq" barədə dünyanı xəbərdar etməyə həsr etmiş bir müəllifin diqqətlə formalaşdırılmış bir illüziyanın təsiri altına düşməsini müşahidə etmək dərin ironiyadır. Vardanyanın maliyyə şəbəkəsinin, fəaliyyət tarixçəsinin və qəfil siyasi manevrlərinin hərtərəfli təhlili göstərir ki, onun geniş tanınan xeyriyyəçi imici məhz sizin klassik şəkildə "narrativ səhv" adlandıracağınız bir vasitədir və qanunsuz maliyyə fəaliyyətini, eləcə də geosiyasi sabitliyin pozulmasını gizlətməyə xidmət edir".



Ergün Kırlıkovalı məktubunda faktlara diqqət çəkir: "Gəlin faktlara nəzər salaq. Vardanyanın "Troika Dialog" bankı "Troika Laundromat" kimi tanınan çirkli pulların yuyulması sxeminin mərkəzində fəaliyyət göstərirdi. Qlobal maliyyə qurumlarının və hüquq-mühafizə orqanlarının araşdırmalarına əsasən, bu şəbəkə əsas və ikinci dərəcəli "təbəqələşdirmə" üsullarından istifadə etməklə mürəkkəb ofşor sxemləri, vasitəçi bankları və saxta şirkətləri idarə edib, Rusiyadan milyardlarla dolların qanunsuz şəkildə çıxarılmasını təmin edib və benefisiar mülkiyyətçilərin kimliyini sistemli şəkildə gizlədib. Bundan əlavə, bank auditləri göstərir ki, bu şəbəkə adi və heç nədən xəbəri olmayan vətəndaşlardan hüquqi şəxslərin hesablarını rəsmiləşdirmək üçün istifadə edib, onların şəxsiyyət məlumatları vasitəsilə vəsaitləri mürəkkəb beynəlxalq maliyyə sxemləri ilə köçürüb. Sistemli maliyyə pozuntularından əlavə, Vardanyanın fəaliyyəti qanunvericilik və təhlükəsizlik baxımından da ciddi nəticələr doğurur.

Rusiyanın Ukraynaya genişmiqyaslı hücumundan sonra o, Rusiyanın müharibə məqsədlərinə xidmət edən əsas sənaye sahələrinə maddi, texniki və logistik dəstək göstərməkdə ittiham olunaraq, bir sıra beynəlxalq monitorinq mexanizmlərinə daxil edilib. Onun adının Ukraynanın "Peacemaker" (Sülhməramlı) bazasına rəsmi daxil edilməsi onu, sadəcə, müşahidəçi deyil, dövlət təcavüzünü maliyyə baxımından dəstəkləyən şəxs kimi xarakterizə edir. Beynəlxalq səviyyədə ciddi sanksiyalarla üzləşmiş bir şəxsin qeyd-şərtsiz azadlığa buraxılmasını tələb etməklə siz regional zorakılığı maliyyələşdirən mexanizmləri faktiki olaraq müdafiə etmiş olursunuz".

Məktubda qeyd olunur ki, Vardanyanın 2022-ci ilin sonlarında Qarabağa qəfil gəlişi yerli sabitliyi birbaşa pozdu, nəticədə terrorçuluğun maliyyələşdirilməsi və qanunsuz silahlı birləşmələrin yaradılması ittihamları ilə 2026-cı ilin fevralında Bakı Hərbi Məhkəməsinin çıxardığı 20 il müddətinə azadlıqdan məhrumetmə hökmü ilə nəticələndi: "Vardanyanın keçdiyi yolu, sadəcə, humanitar missiya kimi qiymətləndirmək yazılarınızda xəbərdarlıq etdiyiniz "kor nöqtələr"in qurbanına çevrilmək deməkdir. Bundan əlavə, ictimai mövqeyiniz bu münaqişənin qurbanlarına qarşı tarixi empatiyanın ciddi çatışmazlığını nümayiş etdirir. Otuz ildən artıq müddətdə Azərbaycan xalqı öz torpaqlarında ağır faciələr yaşayıb. Bu faciələrə 1992-2020-ci illərdə baş vermiş amansız hərbi işğal, silah gücünə doğma yurdlarından didərgin salınmış təxminən bir milyon azərbaycanlı mülki şəxs və 1992-ci ildə baş vermiş Xocalı qətliamının sənədləşdirilmiş dəhşətləri daxildir. Bu ərazilərin azad olunması və 2020-ci ilin noyabrında əldə edilmiş atəşkəs nəhayət davamlı sülh sazişinə aparan yolu açsa da, uzunmüddətli sülh yalnız beynəlxalq məsuliyyət və hüququn aliliyinin təmin olunması ilə mümkündür. Kölgə iqtisadiyyatı, qanunsuz qlobal maliyyə əməliyyatları və müharibə logistikası ilə sıx əlaqələri olan bir oliqarxı müdafiə etmək üçün qlobal platformanızdan istifadə etməklə siz etik mövqe nümayiş etdirmirsiniz. Əksinə, siz süni şəkildə hazırlanmış bir piar kampaniyasının intellektual dürüstlüyünüzə kölgə salmasına icazə verirsiniz.

Əsl humanizm bizdən əziyyətlərdən qazanc götürən nüfuzlu maliyyəçilərin deyil, məcburi köçkünlərin və təcavüz qurbanlarının tərəfində olmağı tələb edir. Sizi real və ya təxəyyül məhsulu olan şəxsi rəğbətinizi bir kənara qoymağa, Vardanyanın fəaliyyət şəbəkəsini özünüzün tətbiq etdiyiniz ciddi skeptisizm meyarları ilə qiymətləndirməyə və müdafiənizin doğurduğu ciddi etik nəticələri yenidən nəzərdən keçirməyə çağırıram".

### "Zərurət", yoxsa...

Yazının əvvəlində səsləndirdiyimiz sual yenidən ortaya çıxır - görəsən, haqqı və ədaləti, ədalətli mühakiməni özünün sadiq prinsipi elan etmiş Qərbin adını ziyalı qoymuş "professoru" niyə bu "pullu erməniyə" münasibətdə öz ənənələrinə xəyanət edir? Nə üçün, eyni məsuliyyəti daşıyan və dünyanın bir çox yerlərində separatizm toxumu yayanlar bu gün zindandadır, amma ölkəmizin suverenliyini pozmuş, müharibə cinayətkarı Vardanyana münasibətdə xeyriyyəçi qismində "kampaniya" aparılır? Bu, hansı ədalətin göstəricisidir?... Və ya bu ikili standart "hansı zərurətdən" irəli gəlir...

### Ədalət məhkəməsinin qərarı ilə...

Azərbaycan məhkəməsinin qərarları isə yalnız hüquqa və ədalətə söykənir. Qeyd edək ki, avqustun 6-da Bakı Apellyasiya Məhkəməsində Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə və digər çoxsaylı cinayətlərə görə Bakı Hərbi Məhkəməsi tərəfindən barələrində ittiham hökmü çıxarılmış Ermənistan Respublikası vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin apellyasiya şikayətləri üzrə açıq məhkəmə iclası davam etdirilib. Məhkəmədə təqsirləndirilən şəxslərin apellyasiya şikayətləri üzrə məhkəmə qərarı elan olunub. Məhkəmə qərarında bildirilib ki, Harutyunyan Arayik Vladimiri, Sahakyan Bako Sahaki, Babayan Davit Klimin, Mnatsakanyan Levon Henrixi, Qukasyan (Ğukasyan) Arkadi Arşaviri, Manukyan David Azati, İşxanyan Davit Rubeni, Babayan Madat Arakeli, Paşayan Melikset Vladimiri, Martirosyan Qarik Qriqori, Qazaryan Erik Roberti, Beqlaryan Vasili İvani, Balayan Levon Romiki, Allahverdiyan Davit Nelsoni və Stepanyan Qurqen Homerosinin barələrində olan cinayət işi üzrə Bakı Hərbi Məhkəməsinin 2026-cı il 5 fevral tarixli hökmü verilmiş apellyasiya şikayətlərinə münasibətdə dəyişdirilmədən saxlanılsın.

Xatırladaq ki, Bakı Hərbi Məhkəməsinin 2026-cı il 5 fevral tarixli hökmünə əsasən, Arayik Harutyunyan, Levon Mnatsakanyan, David Manukyan, Davit İşxanyan və David Babayan ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum ediliblər. Arkadi Qukasyan və Bako Sahakyan 20 il, Madat Babayan və Melikset Paşayan 19 il, Qarik Martirosyan 18 il, Davit Allahverdiyan və Levon Balayan 16 il, Vasili Beqlaryan, Qurgen Stepanyan və Erik Qazaryan isə 15 il müddətinə azadlıqdan məhrum ediliblər.

**P.İSMAYILOV**

# Xəzər dənizinin dibi ilə Trans-Xəzər Fiber-Optik Kabel Xəttinin çəkilişi başa çatıb

Avropa ilə Asiya arasında Azərbaycan tərəfinin təşəbbüsü ilə həyata keçirilən "Rəqəmsal İpək Yolu" layihəsi çərçivəsində Xəzər dənizinin dibi ilə ilk fiber-optik kabelin çəkilməsi uğurla başa çatıb.

"AzerTelecom" və "Kazakhtelecom" şirkətləri tərəfindən icra olunan "Trans-Xəzər Fiber-Optik Kabel Xətti" layihəsinə əsasən Sumqayıt şəhərindən (Azərbaycan) Aktau şəhəri (Qazaxıstan) istiqamətində 380 kilometr uzunluğunda sualtı fiber-optik kabel xətti çəkilib. Xüsusi avadanlıqla təchiz olunmuş gəmi vasitəsilə zirehli fiber-optik kabel Xəzər dənizinin dibi ilə təhlükəsiz və dayanıqlı marşrut üzrə yerləşdirilib.



"AzerTelecom" şirkətinin Direktorlar Şurasının sədri Emil Məsimov layihənin strateji əhəmiyyətini vurğulayaraq qeyd edib: "Azərbaycan üzərindən yeni rəqəmsal dəhliz yaradacaq "Rəqəmsal İpək Yolu" layihəsinin əsas komponentlərindən biri Xəzər dənizinin dibi ilə fiber-optik kabel xəttinin çəkilməsidir. Layihəni texniki baxımdan mürəkkəbləşdirən əsas amil Xəzər dənizinin dibi ilə belə bir infrastrukturun ilk dəfə yaradılması idi. Bu mərhələnin uğurla tamamlanması tezliklə Xəzər dənizi üzərindən Avropa ilə Asiya arasında trafik mübadiləsinin başlamasına imkan verəcək".

Hazırda kabel xəttinin sahilyanı infrastrukturla inteqrasiyası, həmçinin yerüstü infrastrukturun tikintisi üzrə işlər davam etdirilir. "Trans-Xəzər Fiber-Optik Kabel Xətti" layihəsinin 2026-cı ilin sonunadək istifadəyə verilməsi planlaşdırılır.

Xəzər dənizində ilk sualtı rəqəmsal marşrut regionda 400 terabit/saniyədən çox yüksəksürətli internet bağlantısını, böyük həcmdə məlumat mübadiləsini təmin edəcək, həmçinin regionda rəqəmsal xidmətlərin inkişafına töhfə verəcək.

Trans-Xəzər Fiber-Optik Kabel Xətti "Rəqəmsal İpək Yolu" layihəsinin önəmli hissəsidir. Azərbaycan, Gürcüstan, Türkiyə, Qazaxıstan və Bolqarıstan ərazilərindən keçəcək rəqəmsal telekommunikasiya dəhlizi - "Rəqəmsal İpək Yolu" məlumatların ötürülməsində yüksək zolaq genişliyi və minimal gecikməni təmin edən ən optimal və qısa marşrut olmaqla ölkələr arasında regional əməkdaşlığa və dayanıqlı inkişafa təkan verəcək.

# Maliyyə institutlarının korporativ idarəetmə standartları dəyişir

Azərbaycanda maliyyə institutlarının korporativ idarəetmə standartlarına dəyişikliklər sentyabrın 1-dən qüvvəyə minəcək.

Bu barədə Azərbaycan Mərkəzi Bankı (AMB) xəbər verib.

Xatırladaq ki, qurum maliyyə institutlarında etik davranış standartlarının təkmilləşdirilməsi, istehlakçıların hüquqlarının qorunmasının gücləndirilməsi, o cümlədən istehlakçıların müraciətlərinə baxılması işinin təkmilləşdirilməsi istiqamətində normativ bazanın təkmilləşdirilməsini davam etdirir. Bu çərçivədə AMB-nin İdarə Heyətinin 7 iyul 2026-cı il tarixli qərarı ilə "Banklarda korporativ idarəetmə Standartları", "Sığortaçılarda korporativ idarəetmə Standartları", "İnvestisiya şirkətlərində korporativ idarəetmə Standartları" və "Ödəniş təşkilatları və elektron pul təşkilatları tərəfindən fəaliyyətin təşkili və həyata keçirilməsi Qaydası"nda dəyişikliklər təsdiq edilib.



Dəyişikliklərə əsasən, maliyyə institutlarında müştəri şikayətlərinə baxılması üzrə müstəqil funksiyanın yaradılması nəzərdə tutulur. Bu funksiya maliyyə institutunun fəaliyyət miqyasına uyğun olaraq ayrıca struktur bölmə və ya məsul şəxs tərəfindən icra oluna bilər. Sözügedən dəyişikliyin məqsədi müştəri hüquqlarının qorunması, şikayətlərin qanunvericiliyə uyğun, obyektiv və operativ araşdırılması, şikayətlər üzrə uçot və təhlillərin aparılması, habelə müştəri müraciətləri əsasında daxili proseslərin təkmilləşdirilməsidir. Maliyyə institutları bu funksiyanın effektiv fəaliyyəti üçün zəruri resursları, məlumatlara çıxış imkanlarını və əməkdaşların mütəmadi inkişaf fəaliyyətlərinə cəlb edilməsini təmin etməlidirlər.

Bundan əlavə dəyişikliklər çərçivəsində maliyyə institutlarında etik davranış qaydalarının əhatə dairəsi genişləndirilir və onlara nəzarət mexanizmləri gücləndirilir. Belə ki, etik davranış qaydaları maliyyə institutunun rəhbər və işçi heyəti üçün davranış standartlarını, reputasiya risklərinin qarşısının alınmasını, maraqlar münaqişəsinin idarə edilməsini, şəffaflıq, dürüstlük, müştərilərlə ədalətli rəftar və digər vacib prinsipləri əhatə etməlidir.

Dəyişikliklər istehlakçıların hüquqlarının qorunması səviyyəsinin, maliyyə institutlarında etik davranış prinsiplərinin, müştəriyönümlü yanaşmanın, həmçinin maliyyə sektoruna ictimai etimadın artırılmasına töhfə verəcək.

# Kiçik və orta dövlətlərin yeni dünya nizamında strategiyası

## Təhlükəsizliklə inkişaf arasında balans

XXI əsrin beynəlxalq münasibətlər sistemi böyük geosiyasi dəyişikliklər dövrünü yaşayır. ABŞ və Çin arasında artan strateji rəqabət, Rusiya-Qərb münasibətlərində yaranmış gərginlik, enerji bazarlarında baş verən dəyişikliklər, texnoloji asılılıqlar və qlobal iqtisadi qeyri-sabitlik dövlətlərin xarici siyasət strategiyalarını yenidən nəzərdən keçirməsini zəruri edir.

Bu proseslər ən çox kiçik və orta çaplı dövlətlər qarşısında mürəkkəb seçimlər yaradır. Böyük güclər qlobal siyasətin əsas istiqamətlərini müəyyən etmək imkanına malik olsalar da, orta dövlətlər məhdud resurslarla dəyişən beynəlxalq mühitdə öz milli maraqlarını qorumağa çalışır. Onların qarşısında duran əsas vəzifə böyük güclər arasındakı rəqabətdə müəyyən tərəfin alətinə çevrilmədən, eyni zamanda təhlükəsizlik və inkişaf imkanlarını təmin edən balanslı siyasət formalaşdırmaqdır.

Müasir beynəlxalq münasibətlərdə bildirmələri və ya müəyyən əməkdaşlıq formatlarına qoşulmaları tələb oluna bilər. Bu vəziyyətdə əsas məsələ milli maraqların düzgün müəyyən edilməsidir. Dövlət qısa müddətli siyasi təzyiqlərdən daha çox uzunmüddətli inkişaf məqsədlərinə əsaslanan strategiya formalaşdırmalıdır.

İqtisadi dayanıqlılıq bu strategiyanın əsas elementlərindən biridir. Çünki siyasi müstəqilliyin mühüm şərtlərindən biri iqtisadi imkanlardır. İqtisadi cəhətdən zəif və xarici asılılığı yüksək olan dövlətlərin müstəqil xarici siyasət aparmaq imkanları məhdudlaşa bilər. Bu səbəbdən müasir dövrdə iqtisadiyyat milli təhlükəsizliyin əsas hissəsi kimi qiymətləndirilir. Enerji təhlükəsizliyi, ərzaq təhlükəsizliyi, maliyyə sabitliyi, texnoloji imkanlar və istehsal potensialı dövlətlərin strateji dayanıqlığını müəyyən edir. Beynəlxalq Valyuta Fondunun və Dünya Bankının hesabatlarında da qeyd olunur ki, iqtisadi şaxələndirmə və institusional inkişaf dövlətlərin xarici



"orta dövlət" anlayışı yalnız ərazi və ya əhali göstəriciləri ilə müəyyən olunmur. Bu anlayış daha çox diplomatik imkanları, iqtisadi potensialı, regional təsir qabiliyyəti və beynəlxalq təşəbbüslərdə iştirak səviyyəsi ilə bağlıdır. Kanada, Avstraliya, Cənubi Koreya, Türkiyə, Sinqapur, Norveç, Birləşmiş Ərəb Əmirlikləri kimi ölkələr müxtəlif coğrafi və siyasi xüsusiyyətlərə malik olsalar da, onların ümumi xüsusiyyəti ondan ibarətdir ki, məhdud resurslarla beynəlxalq sistemdə təsir imkanları yaratmağa nail olublar.

Tarix göstərir ki, kiçik və orta dövlətlərin uğuru heç vaxt yalnız onların ölçüsü ilə müəyyən edilməyib. Əsas amil həmin dövlətlərin dəyişən beynəlxalq şəraitə uyğunlaşmaq qabiliyyəti olub. İsveçrə uzun müddət neytrallıq siyasətindən istifadə edərək beynəlxalq maliyyə və diplomatiya mərkəzinə çevrilib. Sinqapur təbii resurs çatışmazlığına baxmayaraq, yüksək texnologiya, logistika və qlobal ticarət sahələrində mühüm mövqe qazanıb. Cənubi Koreya isə XX əsrin ikinci yarısında iqtisadi modernləşmə siyasəti nəticəsində dünyanın aparıcı sənaye və texnologiya mərkəzlərindən birinə çevrilib. Bu nümunələr göstərir ki, XXI əsrdə dövlətlərin gücü yalnız hərbi potensialla və təbii sərvətlərlə ölçülmür. Dövlətin institusional keyfiyyəti, insan kapitalı, innovasiya imkanları, iqtisadi çevikliyi və diplomatik bacarığı da milli gücün əsas komponentlərinə çevrilib.

Müasir beynəlxalq sistemdə kiçik və orta dövlətlər üçün ən mühüm strategiyalardan biri diplomatik çevikliKdir. Diplomatik çeviklik müxtəlif güc mərkəzləri ilə münasibətləri qorumaq, milli maraqları müdafiə etmək və dəyişən şəraitə uyğun siyasət aparmaq qabiliyyətidir. Soyuq müharibə dövründə dünya əsasən iki böyük blok arasında bölünmüşdü. Bu şəraitdə bir çox dövlət təhlükəsizlik məqsədləri baxımından müəyyən siyasi bloklara yaxınlaşmağa məcbur olurdu. Lakin XXI əsrin reallığı daha mürəkkəbdir. Müasir dünyada iqtisadi əməkdaşlıq, enerji əlaqələri, texnoloji tərəfdaşlıq və təhlükəsizlik maraqları çox vaxt fərqli istiqamətlər üzrə inkişaf edir.

Bir dövlət eyni zamanda müxtəlif tərəfdaşlarla iqtisadi əlaqələr qura, təhlükəsizlik əməkdaşlığı həyata keçirə və diplomatik müstəqilliyini qorumağa çalışa bilər. Bunun üçün əsas şərt xarici siyasətin ideoloji yanaşmalardan daha çox milli maraqlar əsasında formalaşdırılmasıdır. Məhz bu baxımdan "strateji balans" anlayışı kiçik və orta dövlətlərin xarici siyasətində mühüm yer tutur. Strateji balans hər hansı güc mərkəzinə qarşı neytral mövqe tutmaqdan daha geniş anlayışdır. Bu, müxtəlif tərəfdaşlarla münasibətlərdə dövlətin öz qərarvermə imkanlarını qoruması, iqtisadi və siyasi asılılığı minimuma endirməsi deməkdir. Lakin balans siyasəti asan həyata keçirilən strategiya deyil. Böyük güclər arasındakı rəqabət artdıqca orta dövlətlər üzərində siyasi və iqtisadi təzyiqlər də artır. Dövlətlərdən seçim etmələri, müəyyən istiqamətlərdə mövqe şoklara davamlılığını artıran əsas amillərdəndir. Xüsusilə qlobal böhranlar göstərdi ki, yalnız bir sektordan və ya bir bazardan asılı iqtisadi modellər uzunmüddətli perspektivdə risklərlə üzləşə bilər. Bu baxımdan kiçik və orta dövlətlər üçün əsas prioritetlərdən biri iqtisadiyyatın şaxələndirilməsi olmalıdır. Enerji resurslarına malik ölkə belə gələcək inkişaf üçün elm, texnologiya, sənaye, logistika və insan kapitalına investisiya etməlidir.

Müasir dünya iqtisadiyyatında rəqabət artıq yalnız istehsal həcmi ilə müəyyən olunmur. İnnovasiya qabiliyyəti, rəqəmsal imkanlar, yüksək ixtisaslı kadrlar və elmi tədqiqat potensialı dövlətlərin qlobal mövqeyinə birbaşa təsir göstərir. Kiçik və orta dövlətlərin digər mühüm üstünlüyü çeviklik imkanlarıdır. Böyük dövlətlərdə qərar qəbuletmə mexanizmləri çox zaman mürəkkəb və uzunmüddətli proses tələb edir. Orta ölçülü dövlət isə daha sürətli uyğunlaşa, yeni iqtisadi sahələrə investisiya qoya və regional təşəbbüslər irəli sürə bilər. Bununla yanaşı, müasir dövrdə regional əməkdaşlıq da kiçik və orta dövlətlərin strategiyasında mühüm yer tutur. Regional təşkilatlar, iqtisadi birliklər və nəqliyyat layihələri dövlətlərə kollektiv imkanlarını artırmağa kömək edir. Məsələn, Avropa İttifaqının inkişaf modeli göstərir ki, dövlət müəyyən sahələrdə əməkdaşlığı gücləndirməklə qlobal rəqabət qabiliyyətini artıra bilər. Eyni zamanda, Asiya və Avrasiya məkanında yeni iqtisadi dəhlizlərin yaranması orta dövlətlər üçün geoiqtisadi imkanlar yaradır. Lakin bütün bu imkanlardan səmərəli istifadə etmək üçün dövlətlərin əsas kapitalı insan resurslarıdır. Təhsil sistemi, peşəkar dövlət idarəçiliyi, elmi potensial və innovasiya mədəniyyəti olmayan ölkə dəyişən dünya nizamında uzunmüddətli üstünlük əldə etməkdə çətinlik çəkə bilər.

XXI əsrdə kiçik və orta dövlətlərin əsas strategiyası sadəcə böyük güclər arasında mövqe seçməkdən ibarət olmamalıdır. Əsas məqsəd öz daxili imkanlarını gücləndirmək, iqtisadi və siyasi dayanıqlığı artırmaq, müxtəlif tərəfdaşlarla qarşılıqlı faydalı münasibətlər qurmaq və beynəlxalq sistemdə fəal iştirak etməkdir.

Yeni dünya nizamına uğurun əsas şərti ölçü deyil, idarəetmə keyfiyyətidir. Kiçik və orta dövlətlər düzgün strategiya, çevik diplomatiya və davamlı inkişaf modeli vasitəsilə qlobal proseslərdə mühüm rol oynaya bilər. Gələcəyin beynəlxalq sistemində yalnız böyük əraziyə və böyük resurslara sahib ölkələr güclü mövqe tutmayacaq. Əsas üstünlük dəyişiklikləri vaxtında görən, milli imkanlarını düzgün qiymətləndirən və qlobal əməkdaşlıq imkanlarından səmərəli istifadə edən dövlətlərdə olacaq.

*Kəramət Qənbərov,*
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət qulluğu və kadr siyasəti" kafedrasının müəllimi, Beynəlxalq hüquq üzrə ekspert***

# Razılaşma "qapıdadır"...

## İran ilə Oman Hörmüzdə kompromis yarada biləcəkmi?

Bu ilin fevralının sonundan başlayan ABŞ-İran qarşıdurmasının ən mühüm məqamlarından biri sayılan "Hörmüz düyünü" açılır. Belə ki, İran və Oman Hörmüz boğazından keçən gəmiçilik marşrutu barədə razılığa gəliblər. İslam Respublikasının Xarici İşlər Nazirliyi bildirib ki, tərəflər marşrutun koordinatları ilə bağlı qarşılıqlı anlaşma əldə ediblər. XİN bəyan edib ki, iki ölkənin bununla bağlı birgə bəyanatı hazırlanır və bu bəyanat hər iki tərəfdən təsdiqlənəcək. "Tərəflər marşrutun coğrafi koordinatları ilə bağlı qarşılıqlı anlaşma əldə ediblər. Müəyyən üçüncü tərəflər maneə yaratmasa, İran və Oman arasında əsas razılaşdırılmış müddəaları özündə əks etdirən birgə bəyanat təsdiqlənəcək", - deyə İran Xarici İşlər Nazirliyinin sözçüsü İsmail Bəqai bildirib. Onun sözlərinə görə, son iki ay ərzində tərəflər Hörmüz boğazında kommersiya gəmiçiliyi üçün təhlükəsiz marşrut, eləcə də texniki, hüquqi və ekoloji aspektləri müəyyən ediblər.

Hesabatda həmçinin vurğulanıb ki, İran-Oman razılaşması ABŞ-ın bölgədəki hərəkətləri səbəbindən tranzit gəmilər üçün tam təhlükəsizliyə zəmanət vermir.

### Əvvəlcə İran...

Xatırladaq ki, bir müddət əvvəl "Financial Times" (FT) mənbələrə istinadən xəbər vermişdi ki, Hörmüz boğazından sərbəst keçidin bərpası ilə bağlı razılaşma ABŞ sanksiyalarının qaldırılmasını, İran limanlarının blokadasını və İran neftinə qoyulan məhdudiyyətlərin yumşaldılmasını əhatə edir. FT mənbələrindən birinin verdiyi məlumata görə, əvvəlcə İran neft tankerlərini və digər gəmiləri boğazın qalan hissəsi dəniz minalarından təmizlənənə qədər bu marşrutdan keçirəcək, bundan sonra arteriya digər gəmilər üçün yenidən açılacaq.

"Axios" da Hörmüzlə bağlı ABŞ, İran və Omanın gəmiçiliyin bərpası üçün müvəqqəti razılığa gəlməsi xəbərini vermişdi. Nəşrin məlumatına görə, danışıqlar bir neçə həftə davam edib.

Qeyd edək ki, Hörmüz boğazından keçən yeni marşrutun coğrafi koordinatları barədə razılıq müvəqqəti xarakter daşıyır və cəmisi 4 ay davam edə bilər. Bunu İranın XİN-i bəyan edib. İRNA-nın məlumatına görə, xarici işlər nazirinin müavini Kazem Qəribabadi bildirib ki, hazırda İran və Oman arasında müzakirə olunan Hörmüz boğazından keçən təhlükəsiz marşrutu müvəqqətidir. "Hazırda Omanla danışıqlar aparılan bu marşrut tərəflər olaraq ikidörd aya qədər davam edə biləcək müvəqqəti marşrut hesab olunur", - deyə o bildirib.

Onun sözlərinə görə, razılaşma Lark adası yaxınlığındakı şimal marşrutunu və Oman sularından keçən cənub marşrutunu bağlayacaq. Yeni marşrutun əhəmiyyətli bir hissəsi İranın ərazi sularından, bir hissəsi isə Oman sularından keçir.

"Reuters" agentliyi isə yazır ki, İran və Oman arasında Hörmüz boğazında gəmiçiliyin tənzimlənməsi ilə bağlı müqavilə Tehrana dəniz yolu ilə Fars körfəzinə daxil olan gəmilərə nəzarət imkanı verəcək ki, bu da İran tərəfi üçün ən böyük güzəştlərdən biridir. "Reuters" bu barədə yüksək vəzifəli İran mənbəsinə və iki regional məmura istinadən məlumat verib. Agentlik qeyd edir ki, İranın boğazda gəmiçilik üzərində nəzarəti ilə bağlı razılaşma, fevral ayında başlayan ABŞ-İsrail hərbi əməliyyatının regional balansı Tehranın xeyrinə

### 4 aylıq müqavilə...

əhəmiyyətli dərəcədə dəyişdiriyi anlamına gəlir. Münaqişədən əvvəl boğaz bütün gəmilərin ödənişsiz üzməsi üçün tamamilə sərbəst idi. Maraqlıdır ki, əsas müzakirə Körfəz ölkələri gəmi yoxlamalarına və rüsumların könüllü xarakterinə nəzarətlə bağlıdır - amma hər bir tərəfin özünün "nəzarət" anlayışı mövcuddur. Bildirilir ki, Tehran yükün dəyərinin 5-7 faizi, Oman isə təxminən 3 faizi məbləğində rüsumları müzakirə edir - Vaşinqton isə bu rüsumların tamamilə ləğvini tələb edir. ABŞ dövlət katibi Marko Rubio dəfələrlə bəyan edib ki, hökumətin beynəlxalq sular üzərində istənilən formada nəzarəti beynəlxalq hüquqa ziddir. "Əgər Yaxın Şərqdə bir millətin beynəlxalq su yoluna nəzarət etmək qərarına gələ biləcəyi bir presedent yaratsaq," o, bu yaxınlarda dedi, "ödəniş tətbiq edin və onu ödəməsəniz, gəmilərinizi partladın, biz çox təhlükəli bir presedent yaratmış olarıq ki, bu, dünyanın digər yerlərində də təkrarlanacaq."




ABŞ Prezidenti Donald Tramp isə razılaşmanın vacibliyini önə çəkib. O, Hörmüz boğazının "çox tezliklə" gəmiçilik üçün yenidən açılacağını və ya İranın daha çox Amerika zərbə-

### Tramp xəbərdarlıq etdi

ləri ilə üzləşəcəyini bildirib. ABŞ Prezidenti bunu Fox News-a verdiyi müsahibədə deyib. "Boğaz çox tezliklə açılacaq, yoxsa onlara çox ağır zərbə vuracağıq", - deyə Tramp bildirib.

Amerika prezidentinin sözlərinə görə, hazırda Vaşinqton və Tehran arasında "çox yaxşı danışıqlar" gedir. Tramp həmçinin yeni hərbi münaqişə ilə bağlı diplomatik həllə üstünlük verdiyini vurğulayıb.

"Biz onlara çox, çox güclü zərbə vurduq. Amma ən güclü zərbə hələ qarşıdadır və ümid edirəm ki, biz bunu vurmaq məcburiyyətində deyilik. Ümid edirəm ki, biz bunu etmək məcburiyyətində deyilik - hazırda çox yaxşı danışıqlar aparırıq. Onlar sadəcə bunu etiraf etmək istəmirlər", - deyə o bildirib.

### Rüsum tətbiqi digər boğazlara necə təsir edəcək?

Xatırladaq ki, beynəlxalq şərhçilər hələ aylar öncə Hörmüzdə baş tutacaq hansısa rüsum razılaşmasının mənfi presedent yaradacağını bəyan etmişdilər. Bildirilirdi ki, bu "presedent" dəniz daşımaçılığına ağır zərbə vura bilər. Belə ki, dünyada əsas iqtisadi əhəmiyyətə malik olan boğazlarla vəziyyət fərqlidir. Məsələn, Malayziya və İndoneziya arasındakı Malakka boğazında keçid UNCLOS çərçivəsində "tranzit keçidi" prinsipi ilə tənzimlənir. Gəmilər icazə almadan keçə bilər, amma beynəlxalq naviqasiya qaydalarına əməl etməlidir. Yəmən ilə Cibutinin arasında yerləşən Bəb əl-Məndəb boğazı da beynəlxalq boğaz hesab olunur və tranzit keçidi hüququ tətbiq edilir. Bosfor boğazı Türkiyənin nəzarətində olsa da, keçiddə hərəkət "Montrö Konvensiyası" ilə tənzimlənir. Ticarət gəmiləri üçün əsasən sərbəst keçid var - lakin təhlükəsizlik və naviqasiya qaydaları tətbiq olunur. Boğazda hərbi gəmilər üçün ciddi məhdudiyyətlər mövcuddur. Danimarka boğazlarının bəzi hissələri İsveç ilə paylaşılsa da, əsas nəzarət rəsmi Kopenhagendədir. Burada da UNCLOS çərçivəsində tranzit keçidi tətbiq olunur - gəmilər sərbəst keçə bilir, lakin sıx trafikə görə ciddi naviqasiya və təhlükəsizlik qaydaları mövcuddur. Çilinin nəzarətində olan Magellan boğazı isə tarixi müqavilələrə görə beynəlxalq gəmiçilik üçün açıqdır. Keçid azaddır, lakin Çili naviqasiya təhlükəsizliyinə nəzarət edir.

O ki qaldı, rüsuma, burada da vəziyyət fərqlidir. Bu boğazların çoxunda əsas prinsip "sərbəst tranzit"dir və birbaşa keçid rüsumu tətbiq edilmir. Düzdür, bəzi hallarda xidmət haqları və ya xüsusi rejimlər var. Ayrı-ayrılıqda diqqət yetirsək:

- Malakka boğazında birbaşa keçid rüsumu yoxdur. Yalnız pilotaj, liman xidməti və ya təhlükəsizlik xidmətləri üçün könüllü ödənişlər ola bilər;
- Bəb əl-Məndəb boğazında da rəsmi keçid rüsumu yoxdur. Praktikada bəzi hallarda təhlükəsizlik xərcləri (məsələn, müşayiət və ya sığorta xərcləri) olsa da, bu dövlət rüsumu deyil;
- Bosfor boğazı: vurğulandığı kimi keçid prinsipi "Montrö Konvensiyası" ilə müəyyən edilir və birbaşa tranzit rüsumu yoxdur - amma Türkiyə bəzi xidmət haqları tətbiq edir (məsələn, mayak, tibbi xidmət, xilasetmə). Pilotaj və yedəkləmə xidmətləri də ödənişlidir - bu ödənişlər formal olaraq "məcburi" deyil.
- Danimarka boğazlarında da hazırda keçid rüsumu yoxdur. Əvvəllər bu boğazlarda "Sound Dues" adlı rüsum mövcud olub - lakin 1857-ci ildə ləğv olunub. Bu gün yalnız xidmət xarakterli ödənişləri görmək mümkündür.
- Magellan boğazında da keçid pulsuzdur. Çili beynəlxalq razılaşmalara əsasən rüsum tətbiq etmir. Burada da pilotaj və digər texniki xidmətlər üçün ödəniş tələb oluna bilər. Nəticə etibarı ilə, bu strateji boğazlarda birbaşa "keçid haqqı" demək olar ki, tətbiq edilmir.

Beləliklə, siyasi şərhçilər "rüsum təcrübəsi"ni olduqca təhlükəli bir hal kimi qeyd edirlər. Bu təhlükə isə Yaxın Şərqlə izah edilmir - digər boğazlar da bu nümunəyə "müraciət etsələr" qlobal ticarət "iflic" yaşaya bilər...

***SADİQ***

# NATO-nun yeni təhlükəsizlik fəlsəfəsi

əvvəli ötən sayımızda

## Qərbin strategiyası necə dəyişir?

### ABŞ-Türkiyə-Avropa üçbucağı: transatlantik münasibətlər yeni mərhələyə adlayır

NATO daxilində uzun müddət davam edən bir sıra ziddiyyətlər artıq taktiki mübahisələr kimi deyil, yeni geosiyasi reallığın tərkib hissəsi kimi qiymətləndirilir. Vaşinqton, Ankara və Avropa paytaxtları arasında son on ildə müxtəlif məsələlər üzrə ciddi fikir ayrılıqları yaşansa da, sammit göstərdi ki, tərəflər strateji əməkdaşlığa alternativ olmadığını qəbul edirlər. Bu, münasibətlərdə bütün problemlərin aradan qalxması demək deyil, əksinə, rəqabətlə əməkdaşlığın eyni vaxtda mövcud olduğu yeni siyasi modelin formalaşdığını göstərir.

Beynəlxalq münasibətlər nəzəriyyəsində bu cür münasibətlər "rəqabətli tərəfdaşlıq" (competitive partnership) kimi xarakterizə olunur. Dövlətlər müəyyən məsələlərdə bir-biri ilə razılaşmır, lakin onları ayıran problemlərdən daha böyük ortaq maraqlara malik olduqları üçün strateji əlaqələri qoruyur. ABŞ-Türkiyə münasibətləri də hazırda məhz bu mərhələdədir.

Soyuq müharibə dövründə ABŞ-ın Türkiyəyə yanaşması əsasən geostrateji mövqeyə əsaslanırdı. Ankara Sovet İttifaqının cənub cinahında yerləşən əsas NATO üzvü idi, bu səbəbdən Vaşinqton üçün əvəzolunmaz hesab olunurdu. SSRİ dağıldıqdan sonra isə bəzi Qərb analitikləri Türkiyənin strateji əhəmiyyətinin azalacağını düşünürdülər. Lakin son iyirmi beş ildə baş verən hadisələr tam əks mənzərə yaratdı.

Əfqanıstan əməliyyatları, İraq müharibəsi, "Ərəb baharı", Suriya böhranı, Ukrayna müharibəsi və Qara dəniz regionunda təhlükəsizlik mühitinin dəyişməsi göstərdi ki, Türkiyə Avropa ilə Yaxın Şərq arasında yerləşən adi tranzit ölkə deyil, eyni zamanda NATO-nun cənub-şərq cinahının sabitliyini təmin edən əsas dövlətlərdən biridir. Bu reallıq Vaşinqtonun strateji planlaşdırmasında da öz əksini tapır.

Məşhur amerikalı geosiyasi analitik George Friedman uzun illərdir vurğulayır ki, ABŞ-ın Avrasiya siyasətində əsas məqsədlərdən biri Avropa, Qara dəniz və Yaxın Şərq arasında strateji balansı qorumaqdır. Onun fikrincə, bu coğrafiyada Türkiyə kimi dövlətlər yalnız regional aktor deyil, qlobal güc balansına təsir edən ölkələrdir. Friedman hesab edir ki, Türkiyənin coğrafi mövqeyi ona beynəlxalq siyasətdə iqtisadi göstəricilərindən daha böyük təsir imkanı verir.

Bu yanaşma son illərdə ABŞ-ın aparıcı analitik mərkəzlərində də geniş müzakirə olunur. "Council on Foreign Relations"-ın baş tədqiqatçılarından Steven A. Cook qeyd edir ki, ABŞ ilə Türkiyə arasında müxtəlif fikir ayrılıqları olsa da, Vaşinqton üçün Ankara ilə münasibətlərin qorunması strateji zərurətdir. Onun fikrincə, Qara dəniz təhlükəsizliyi, Yaxın Şərqdə sabitlik və NATO-nun gələcəyi Türkiyənin iştirakı olmadan effektiv şəkildə təmin edilə bilməz.

Eyni mövqeni Brookings Institution-un eksperti Amanda Sloat da bölüşür. O vurğulayır ki, ABŞ və Türkiyə arasında münasibətlər bəzən gərgin mərhələyə daxil olsa da, tərəflər təhlükəsizlik, enerji və regional sabitlik sahələrində əməkdaşlığı davam etdirmək məcburiyyətindədir. Bu qiymətləndirmələr göstərir ki, Vaşinqton-Ankara münasibətlərinə yalnız gündəlik siyasi böhranlar prizmasından baxmaq düzgün olmaz. Burada söhbət uzunmüddətli strateji maraqlardan gedir. Həm də Ankara Sammitinin yaratdığı yeni siyasi mühit yalnız ABŞ-Türkiyə münasibətləri ilə məhdudlaşmır, Avropa İttifaqı da təhlükəsizlik siyasətinə fərqli yanaşmağa başlayır. Xüsusilə Almaniya, Polşa və Baltikyanı ölkələr son illər müdafiə xərclərini əhəmiyyətli dərəcədə artırıb. Almaniyanın "Zeitenwende" ("dönüş nöqtəsi") adlandırdığı təhlükəsizlik siyasəti bu dəyişikliklərin simvoluna çevrilib. Kansler Olaf Şolts 2022-ci ildə Bundestaqda çıxışı zamanı bildirmişdi ki, Avropa artıq yeni təhlükəsizlik reallığında yaşayır və buna uyğun qərarlar qəbul etməlidir. Bu qərarlar təsadüfi deyil. Avropa uzun illər iqtisadi inteqrasiyanı təhlükəsizlik zəmanəti kimi qəbul edirdi. Lakin Ukrayna müharibəsi göstərdi ki, iqtisadi əlaqələr siyasi qarşıdurmaların qarşısını həmişə ala bilmir. Bu səbəbdən Avropa İttifaqı artıq təhlükəsizlik və iqtisadi siyasəti paralel şəkildə planlaşdırmağa başlayıb. Müdafiə sənayesinə investisiyalar, enerji mənbələrinin şaxələndirilməsi, kritik xammal ehtiyatlarının artırılması və nəqliyyat dəhlizlərinin təhlükəsizliyi vahid strateji yanaşmanın elementlərinə çevrilib.

Məhz burada Azərbaycanın geosiyasi əhəmiyyəti daha aydın görünür. Azərbaycan uzun müddət əsasən enerji ixracatçısı kimi qiymətləndirilirdi. Lakin son illər ölkənin strateji rolu daha geniş məna kəsb etməyə başlayıb. Avropa Komissiyasının Prezidenti Ursula von der Leyen hələ 2022-ci ildə Bakıya səfəri zamanı Azərbaycanı Avropa üçün "etibarlı, etimada layiq tərəfdaş" adlandırmış, Cənub Qaz Dəhlizinin genişləndirilməsinin Avropanın enerji təhlükəsizliyi baxımından xüsusi əhəmiyyət daşıdığını bildirmişdi. Bu bəyanat təkcə enerji əməkdaşlığına yox, Azərbaycanın Avropa təhlükəsizlik arxitekturasında artan roluna verilən siyasi qiymət kimi də qəbul olundu. Bununla yanaşı, Orta Dəhliz (Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu) son üç ildə Avropa İttifaqının gündəliyində xüsusi yer tutmağa başlayıb. Çin ilə Avropa arasında alternativ logistika marşrutlarının inkişafı fonunda Azərbaycan təkcə enerji tranzit ölkəsi yox, həm də Avrasiyanın əsas nəqliyyat qovşaqlarından biri kimi çıxış edir. Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı da müxtəlif hesabatlarında Orta Dəhlizin yükdaşımalarının artırılması üçün infrastruktur investisiyalarının vacibliyini qeyd edib.

Bir iyul 2026-cı ildə də Ursula von der Leyen yenidən Bakıya səfər etdi. Lakin bu səfərin məqsədi 2022-ci ildə olduğu kimi yalnız enerji əməkdaşlığı deyildi. 2026-cı il səfəri daha geniş geosiyasi məzmun daşıyır, üç əsas istiqaməti əhatə edirdi:

1. Azərbaycanla Ermənistan arasında sülh prosesinə dəstək;
2. Avropa ilə Cənubi Qafqaz arasında nəqliyyat, enerji və rəqəmsal bağlantının inkişafı;
3. Azərbaycan-Aİ strateji tərəfdaşlığının yeni mərhələyə keçirilməsi.

Bakıda Prezident İlham Əliyevlə görüşdən sonra Ursula fon der Lyayen çıxışına bu sözlərlə başladı: "Yenidən Bakıda olmaqdan məmnunam". Sonra isə səfərinin əsas məqsədini açıq şəkildə ifadə etdi: "Bu gün mən Avropa İttifaqı üçün böyük əhəmiyyət kəsb edən tərəfdaşlığı daha da dərinləşdirmək üçün buradayam". Bu cümlə təsadüfi deyildi. Çünki 2022-ci ildə əsas diqqət enerji təhlükəsizliyinə yönəlmişdisə, 2026-cı ildə Avropa Komissiyası Azərbaycanı artıq yalnız qaz tədarükçüsü kimi deyil, daha geniş regional tərəfdaş kimi təqdim edirdi. Səfərin əsas səbəbi nə idi? Von der Leyen çıxışında ilk növbədə regionda sülh prosesinə toxundu və dedi: "Bu regionda son onilliklərin ən mühüm hadisəsi sülhdür". O vurğuladı ki, Avropa İttifaqı Azərbaycanla Ermənistan arasında əldə olunmuş sülhün yalnız siyasi sənəd olaraq qalmasını deyil, iqtisadi əməkdaşlıq və regional inteqrasiya vasitəsilə möhkəmlənməsini istəyir. Bu məqsədlə Avropa Komissiyası "Peace through Connectivity Package" ("Bağlantı vasitəsilə sülh paketi") adlı yeni təşəbbüsü elan etdi. Paket çərçivəsində: 200 milyon avro həcmində qrant ayrılması planlaşdırıldı; bu vəsait hesabına 2 milyard avroya qədər dövlət və özəl investisiyanın cəlb olunması hədəfləndi; əsas diqqət nəqliyyat, enerji və rəqəmsal infrastrukturun inkişafına yönəldildi; əlavə olaraq 20 milyon avro yerli icmalar, minatəmizləmə, səhiyyə, bacarıqların inkişafı və kiçik biznes layihələrinə ayrıldı. Enerji ilə bağlı mesajlar da verildi. Von der Leyen Azərbaycanın Avropanın enerji təhlükəsizliyində rolunu bir daha vurğulayıb xatırlatdı ki, Rusiya enerji resurslarından siyasi təzyiq vasitəsi kimi istifadə etdiyi dövrdə Azərbaycan Avropa üçün etibarlı enerji mənbəyi rolunu oynayıb. O, Cənub Qaz Dəhlizini Avropa enerji təhlükəsizliyinin uğurlu layihələrindən biri kimi qiymətləndirdi və bu əməkdaşlığın davam etdirilməsinin vacibliyini vurğuladı. 2026-cı ildə əməkdaşlıq enerji ilə məhdudlaşdırılmadı. 2026-cı il səfərinin ən mühüm yeniliklərindən biri Orta Dəhliz idi. Avropa Komissiyası açıq şəkildə bildirdi ki, Avropa üçün etibarlı ticarət, enerji və rəqəmsal əlaqələrin inkişafında Cənubi Qafqaz və Azərbaycan əsas rol oynayır. Bu siyasət xüsusilə son regional gərginliklər və qlobal logistika marşrutlarında yaranan risklər fonunda daha böyük əhəmiyyət qazanıb.




Proses Türkiyə ilə Azərbaycanın strateji əməkdaşlığını daha da əhəmiyyətli edir. Əgər Türkiyə NATO-nun təhlükəsizlik sistemində cənub-şərq cinahının əsas dayağıdırsa, Azərbaycan Xəzər hövzəsi ilə Avropa arasında enerji və logistika əlaqələrinin əsas həlqələrindən biridir. Bu iki xətt birləşdikdə Qara dənizdən Mərkəzi Asiyaya qədər uzanan yeni geoiqtisadi məkan formalaşır. Ankara Sammitinin ən mühüm geosiyasi nəticələrindən biri də məhz budur: təhlükəsizlik anlayışı artıq hərbi alyansların sərhədlərini aşır. Enerji kəmərləri, dəmir yolları, dəniz limanları, rəqəmsal rabitə xətləri və kritik infrastruktur beynəlxalq təhlükəsizlik sisteminin ayrılmaz elementinə çevrilir. Bu səbəbdən ABŞ, Türkiyə və Avropa arasında formalaşan yeni əməkdaşlıq modeli yalnız müdafiə sahəsini yox, enerji, logistika, sənaye və texnologiyanı da əhatə edir.

Azərbaycanın qarşısında duran əsas vəzifə isə bu dəyişən geosiyasi mühitdə öz üstünlüklərini uzunmüddətli strateji üstünlüyə çevirməkdir. Bunun üçün enerji ixracı ilə yanaşı, nəqliyyat infrastrukturu, rəqəmsal dəhlizlər, yaşıl enerji layihələri və regional iqtisadi inteqrasiya istiqamətində ardıcıl siyasətin davam etdirilməsi xüsusi əhəmiyyət daşıyır. Gələcəyin geosiyasi üstünlüyünü hərbi güclə yanaşı enerji təhlükəsizliyi, texnoloji potensial, etibarlı logistika və dayanıqlı tərəfdaşlıq müəyyən edəcək. ABŞ, Türkiyə, Avropa və Azərbaycan arasındakı münasibətlərin gələcək inkişafı da məhz bu çoxşaxəli təhlükəsizlik modelinin necə formalaşacağından asılı olacaq.

### Ankara Sammiti dünya siyasətini dəyişəcəkmi?

Ankara NATO Sammiti başa çatdı, yekun bəyannamə qəbul olundu, müdafiə xərcləri ilə bağlı yeni öhdəliklər təsdiqləndi, növbəti illərin təhlükəsizlik prioritetləri müəyyənləşdirildi. Lakin beynəlxalq münasibətlər tarixini öyrənənlər yaxşı bilirlər ki, böyük sammitlərin əsl nəticəsi onların keçirildiyi günlərdə yox, illər sonra qiymətləndirilir. Çünki sammitlər müharibələri dərhal dayandırmır, yeni ittifaqlar yaratmır və ya geosiyasi rəqabəti bir anda aradan qaldırmır. Onlar dövlətlərin hansı istiqamətdə hərəkət edəcəyini göstərən siyasi kompas rolunu oynayır.

Ankara Sammiti də belə sammitlərdən biridir. Bu toplantının ən mühüm nəticəsi NATO-nun daha çox silah alması və ya üzv dövlətlərin müdafiə büdcələrini artırması deyil; əsas nəticə ondan ibarətdir ki, Qərb dünyası uzunmüddətli geosiyasi rəqabət dövrünün başlandığını rəsmən qəbul etdi. Bu qəbul yalnız siyasi bəyanatlarda yox, müdafiə sənayesinə ayrılan milyardlarla avroluq investisiyalarda, istehsal güclərinin artırılmasında, yeni hərbi texnologiyaların hazırlanmasında və təhlükəsizlik strategiyalarının yenilənməsində də özünü göstərir.

Bu isə o deməkdir ki, yaxın onilliklərdə beynəlxalq münasibətlərdə əsas anlayış "böhranların aradan qaldırılması" deyil, "böhranların idarə olunması" olacaq. Bu reallıq yalnız NATO üçün yox, onun rəqibləri üçün də keçərlidir. Rusiya hərbi-sənaye potensialını genişləndirir, Çin yüksək texnologiyalar və dəniz qüvvələri sahəsində investisiyalarını artırır, Hindistan regional və qlobal güc kimi mövqeyini möhkəmləndirməyə çalışır. Başqa sözlə, XXI əsrin beynəlxalq sistemi tədricən yeni güc balansı üzərində qurulur. Bu balansın əsas xüsusiyyəti isə odur ki, artıq heç bir dövlət təkbaşına qlobal təhlükəsizlik arxitekturasını formalaşdıra bilmir.

Türkiyənin NATO daxilində artan rolu Azərbaycan üçün də əlavə strateji üstünlük yaradır. Şuşa Bəyannaməsi ilə hüquqi əsaslarə möhkəmləndirilmiş müttəfiqlik münasibətləri təkcə iki dövlət arasında əməkdaşlıq modeli deyil, həm də Cənubi Qafqazda yeni təhlükəsizlik və iqtisadi inteqrasiya arxitekturasının əsas sütunlarından biridir. Bu tərəfdaşlıq enerji, nəqliyyat, müdafiə sənayesi, rəqəmsal infrastruktur və regional kommunikasiya layihələri ilə daha da dərinləşdikcə Azərbaycanın beynəlxalq əhəmiyyəti də artacaq.

Tarix göstərir ki, silahlanma sülhün zəmanəti deyil, çəkindirmə vasitəsidir. Güclü ordular müharibənin qarşısını ala bilər, lakin davamlı sülh yalnız diplomatiya, qarşılıqlı etimad və beynəlxalq hüququn effektiv işlədiyi şəraitdə mümkündür. Bu gün dünyanın üzləşdiyi əsas problem silah çatışmazlığı deyil, etimad çatışmazlığıdır. Dövlətlər daha çox silah istehsal edə bilir, lakin daha çox etimad yarada bilmir. Beynəlxalq münasibətlərin gələcəyi də məhz bu ziddiyyətin necə həll olunacağından asılı olacaq.

Ankara Sammiti bir daha göstərdi ki, dünya yeni geosiyasi dövrə qədəm qoyub. Bu dövrün əsas xüsusiyyəti ideoloji qarşıdurmadan çox strateji rəqabət, hərbi üstünlükdən çox texnoloji üstünlük, regional münaqişələrdən çox qlobal qarşılıqlı asılılıq olacaq. Yeni dünya nizamı artıq formalaşır, bu prosesdə yalnız böyük hərbi büdcəyə malik olan ölkələr yox, güclü iqtisadiyyatı, innovasiya potensialı, dayanıqlı dövlət institutları, çevik diplomatiyası və etibarlı tərəfdaşlıq şəbəkəsi olan dövlətlər uğur qazanacaq. XXI əsrin təhlükəsizlik sistemi qurulmaqdadır, bu sistemdə passiv müşahidəçi ölkələr yox, dəyişən reallığa vaxtında uyğunlaşan, strateji düşünən və uzunmüddətli plan quran dövlətlər qalib gələcək. Bütün bunlar həm Qərb, həm Şərq, həm də Cənubi Qafqaz üçün yeni geosiyasi mərhələnin başlanğıcıdır.



***Kərəmət QƏNBƏROV,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının müəllimi, beynəlxalq hüquq üzrə ekspert***

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**




# Rənglərin dili ilə danışan rəssam...

## Toğrul Nərimanbəyovun doğum günüdür



Onun yaradıcılığında Azərbaycan ruhu xüsusi yer tuturdu. Rəsmlərində doğma torpağın təbiəti, milli adət-ənənələr, insan sevgisi və Vətənə bağlılıq parlaq çalarlarla əks olunurdu. Toğrul Nərimanbəyovun fərqli üslubu onu dünya incəsənətində seçilən sənətkarlardan birinə çevirmişdi. O, klassik yanaşma ilə müasir baxışı ustalıqla birləşdirərək özünəməxsus yaradıcılıq məktəbi formalaşdırmışdı.

Toğrul Nərimanbəyov Azərbaycan təsviri sənət tarixinin yetişdirdiyi ən böyük şəxsiyyətlərdən biri sayılır. Onun rəssam kimi yaradıcı istedadı hələ Vilnüsdə təhsil aldığı illərdən parlamağa başlamışdı. Monumental rəssamlıq üzrə təhsil alırdı. Bu sahədəki hüdudsuz yaradıcı imkanlar onu novatorluğa həvəsləndirirdi. Gənc rəssam işlədiyi mövzuların bədii həllinə başqa prizmalardan yanaşaraq tədricən öz fərdi üslubunu formalaşdırırdı.

Rəssamlıqla yanaşı, musiqi ilə də ciddi şəkildə məşğul olmuşdu. Vokal sənətinin incəliklərinə peşəkar səviyyədə yiyələnmişdi. Gözəl səs tembrinə malik idi. Azərbaycanın və dünya vokal sənətinin şah əsərlərini ifa etməyi sevirdi.

1930-cu il avqustun 7-də Bakıda dünyaya gələn T.Nərimanbəyovun yaradıcılığında Bakı mənzərələri, Azərbaycanın ayrı-ayrı regionlarının özünəməxsusluqları xüsusi yer tutur. Sovetlər dönəmində Azərbaycan təsviri sənət ustalarından cəmi üç nəfəri SSRİ-nin ən yüksək fəxri adı sayılan SSRİ Xalq rəssamı adına layiq görülmüşdü. Onlardan biri Mikayıl Abdullayev, digəri Tahir Salahov, üçüncüsü isə Toğrul Nərimanbəyov idi.

### Fransaya gedən yol...

Toğrulun atası Fərman Şuşada doğularaq təhsil almış, sonra isə Fransanın Tuluza Universitetində mühəndis-elektrik ixtisasına yiyələnmiş ziyalı idi. Təhsil müddətində o, fransız dilini mükəmməl öyrənmişdi. Avropa mədəni dəyərlərini mənimsəmişdi. Elə ailə qurduğu qız da İrma Lya Rude adlı fransız modelyer idi.

Fərman təhsilini başa vurandan sonra onlar Bakıya köçüb bu şəhərdə yaşamağa başlamışdılar.

30-cu illərin repressiya dalğası Avropada təhsil almış bir çox ziyalılarımız kimi Toğrulun atasından da yan keçməmişdi. Onu həbs edib Sibirə sürgünə göndərdilər. 1941-ci ildə isə anası İrma Lya Rude də həbs olundu. Toğrulun anası 1961-ci ilədək sürgündə yaşamalı olur. Onun müxtəlif orqanlara çoxsaylı müraciətləri və gərgin mübarizəsi sayəsində bir müddətdən sonra anasına bəraət verildi və İrma Lya Rude Bakıya qayıtmağa müvəffəq oldu. Tezliklə, atası Fərman Nərimanbəyov da amnistiyaya düşərək Sibir sürgünündən vətənə qayıtdı...



Nə qədər qəribə görünsə də, T.Nərimanbəyov da həyatının bir hissəsini ana vətəni olan Fransa ilə bağladı. O uzun illər idi ki, Fransada yaşayırdı. Vətəndən köçüb getməsi isə ötən əsrin 80-ci illərinin axırlarında şəxsi həyatında baş verən gözlənilməz hadisələrlə bağlı olub. Bunu yaxınlarından gizlətsə də, portretini çəkdiyi parapsixoloq Tofiq Dadaşovdan gizlədə bilməyib. Parapsixoloqun "Məşhursunuz. Daha məşhur olacaqsınız. Amma böyük çətinliklərlə üzləşəcəksiniz. Vətəndən uzaq düşüb bütün dünyanı dolaşacaqsınız"- sözlərindən bir müddət sonra ailəliklə Moskvaya, sonra Amerikaya, oradan da Lüksemburqa və Fransaya köçüb. Böyük çətinliklərlə üzləşsə də güc tapıb Parisdə qərarlaşa bilib. Hətta bu şəhərin nüfuzlu sərgi salonlarından birində - "Konven de Kordelyer" salonunda möhtəşəm fərdi yaradıcılıq sərgisini də açıb.

Azərbaycanın bütün gözəlliklərinin tərənnüm olunduğu sərgi hamını heyran qoymuşdu. Amerikanın Priston Universitetinin professoru Berit Zeyzinker rəssamın 40 əsərini əldə edərək Priston şəhərində onun adına sərgi salonu yaradıb. Dünyanın bir çox ölkələrində sərgiləri keçirilən rəssamı tamaşaçılar həm də opera müğənnisi kimi tanıyırlar. Ötən əsrin sonlarından başlayaraq o, maraqlı konsert proqramları ilə nüfuzlu səhnələrdə görünür. Onu rəssam kimi sevənlər artıq müğənni kimi də sevib dəyərləndirməyə başlayıblar.

### Şuşa həsrəti...

Dünya şöhrətli rəssamın babası və atası şuşalı olub. Düşmən əlində qalan torpaqlarımıza bir neçə əsər də həsr etmişdi. 2009-cu ildə müsahibələrinin birində Şuşaya qonaq kimi yox, oranın sahibi kimi gedəcəyini bildirmişdi:



"Şuşa bizim torpağımızdır, bizimdir, bax bunu dünyaya çatdırmalıyıq... Şuşa qaytarılsa, gedib orada yaşayacağam. Şuşadan gözəl şəhər tanımıram....

Şuşa bizim möcüzəmizdir. Şuşanı unutmaq, oranın gözəl təbiəti üçün darıxmamaq mümkün deyil. O zamanlar vaxt tapan kimi ilk növbədə Şuşaya gedib Şuşanın gözəlliyindən ilham alırdım. Əminəm ki, gec-tez ədalət bərpa olunacaq, torpaqlarımızı geri qaytaracağıq. Dünya birliyi Qarabağın kimə məxsus olduğunu yaxşı bilir. Torpaqlar öz yiyəsinə qaytarılmalıdır".

Bu gün dahi sənətkarın böyük fəxarət hissi ilə bəhs etdiyi Şuşamız azaddır. Belə bir məqamda görkəmli rəssamımızın həyatda olmaması təbii ki, hər birimizə duyğulu, ancaq bir o qədər də qürurverici hisslər yaşadır.

Böyük rəssamın Azərbaycan və dünya mədəniyyəti qarşısındakı xidmətləri hər zaman yüksək qiymətləndirilmişdi. Heydər Əliyev Toğrul Nərimanbəyovun yaradıcılığına böyük dəyər verirdi. 2000-ci ilin avqustunda Toğrul Nərimanbəyov Azərbaycanın ən yüksək dövlət mükafatlarından olan "İstiqlal" ordeni ilə təltif edilmişdi. 2010-cu ilin avqustunda isə Prezident İlham Əliyevin Sərəncamı ilə rəssam "Şərəf" ordeni ilə mükafatlandırıldı. 2013-cü ilin 2 iyun günü böyük sənətkar 82 yaşında dünyadan köçdü və bütün ömrü boyu axtarışında olduğu əbədiyyət zirvəsinə qovuşdu.

Bu gün Toğrul Nərimanbəyovun adı Azərbaycan təsviri sənətinin qızıl səhifələrində yaşayır. Onun zəngin irsi yeni nəsil rəssamlar üçün ilham mənbəyidir. Böyük sənətkarın yaratdığı rəng dünyası zaman keçsə də öz parlaqlığını itirmir və Azərbaycan mədəniyyətinin ən qiymətli xəzinələrindən biri kimi yaşamaqda davam edir.

***Yeganə BAYRAMOVA***

# ÜST: Dünyada viral hepatitdən hər gün təqribən 3,5 min nəfər ölür

Viral hepatit hər gün təxminən 3500 insanın həyatına son qoyur. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, 2024-cü ildə 1,3 milyon insan hepatit B və C-dən vəfat edib.

AZƏRTAC təşkilatın məlumatına istinadla xəbər verir ki, hazırda təxminən 287 milyon insan xroniki viruslu hepatit B və C ilə yaşayır. Profilaktika və müalicə tədbirlərində irəliləyişlərə baxmayaraq, çox güman ki, 2030-cu ilə qədər viruslu hepatitlərin aradan qaldırılması məqsədinə çatmaq mümkün olmayacaq.

ÜST-nin məlumatına görə, ölümlərin əksəriyyəti illərlə asimptomatik qala bilən, tədricən sirroza və qaraciyər xərçənginə səbəb olan xroniki infeksiyalar ilə bağlıdır. Vaksinasiya, habelə vaxtında diaqnoz qoyulması və müalicə yolu ilə xeyli sayda ölümün qarşısı alına bilər.

Təşkilat HİV, viruslu hepatit və cinsi yolla keçən infeksiyalarla mübarizə üzrə qlobal strategiyaların tətbiqi ilə bağlı yeni hesabatda bir çox ölkənin son on ildə əhəmiyyətli irəliləyişlər əldə etdiyini qeyd edir. Genişləndirilmiş hepatit B peyvəndi milyonlarla yeni infeksiyanın qarşısını alıb. Bundan əlavə, getdikcə daha çox ölkə müasir, tam sağala bilən hepatit C müalicəsinə çıxışı təmin edir, həmçinin profilaktika, diaqnoz və müalicə xidmətləri ilkin səhiyyə xidmətlərinə inteqrasiya olunur.



Bu arada, viral hepatitdən ölüm halları artmaqda davam edir, HİV və vərəmdən vəfat edənlərin sayı isə tədricən azalır. Diaqnozun gec qoyulması əsas amil olaraq qalır. Xroniki hepatit B xəstələrinin cəmi dörddəbiri və hepatit C xəstələrinin üçdəbirindən bir qədər çoxu xəstəliyə yoluxduğunu bilir.

ÜST-nin məlumatına görə, hepatit B ilə yaşayan insanların cəmi 4,3 faizi müalicə alır və yoluxanların 20 faizi hepatit C xəstəliyini tamamilə sağaldacaq səviyyədə müalicə alıb.

Təşkilat vurğulayır ki, test və müalicə proqramlarının əhəmiyyətli dərəcədə genişləndirilməsi olmadan, qlobal miqyasda 2030-cu ilə qədər virus hepatitindən ölüm hallarını 65 faiz azaltmaq mümkün deyil.

Hepatit B peyvəndi ən təsirli profilaktika üsullarından biri olaraq qalır. Hazırda dünyada yeni doğulmuş körpələrin 84 faizi peyvənd alır ki, bu da yeni yoluxma hallarının sayını əhəmiyyətli dərəcədə azaldıb. Lakin bəzi ölkələrdə peyvəndləmənin əhatə dairəsi kifayət qədər deyil. Vəziyyət xüsusilə Afrika regionundakı ölkələrdə çətin olaraq qalır; burada uşaqların cəmi 17 faizi doğuşdansonrakı 24 saat ərzində ilk peyvənd dozasını alır.

Təşkilat qeyd edir ki, zəruri diaqnostik metodlar və effektiv dərmanlar artıq mövcuddur. Hepatit C artıq tamamilə müalicə olunur və hepatit B üçün müasir antiviral terapiya xəstəliklərin nəzarətdə saxlanılmasına, ağır fəsadların qarşısının alınmasına və ölüm hallarının əhəmiyyətli dərəcədə azaldılmasına imkan verir.

ÜST ekspertlərinin fikrincə, peyvənd, diaqnoz və müalicəyə bərabər çıxışın təmin edilməsi əsas vəzifə olaraq qalır. Davamlı maliyyələşdirmə, siyasi dəstək və aktiv beynəlxalq əməkdaşlıq virus hepatitinin aradan qaldırılması kimi qlobal məqsədə çatmaq üçün vacibdir.

**Allah rəhmət eləsin!**

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı partiya veteranı Almaz Həşimovaya oğlu

**EMİN SƏFİYAROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

# Qlobal əhali 2100-cü ilə qədər 6,9 milyarda düşəcək

Qlobal miqyasda əhalinin 2200-cü ilə qədər təxminən dörd milyarda endirilməsi təbii sərvətlərə təzyiqi azalda, iqlim dəyişikliyini yavaşlada və vəhşi təbiətin bərpası üçün şərait yarada bilər. Alimlərin bu qənaəti "Sustainable Development" jurnalında dərc olunmuş tədqiqatın nəticələrində yer alıb.

Xarici media xəbər verir ki, tədqiqat müəllifləri 1970-ci ildən 2020-ci ilə qədər qlobal məlumatları araşdırıblar. Onlar əhali artımını səkkiz ətraf mühit göstəricisi - karbon qazı tullantıları, enerji və şirin su istehlakı, mineral hasilatı, plastik istehsalı, pestisid istifadəsi, ekoloji iz, vəhşi təbiət populyasiyalarında dəyişikliklər ilə müqayisə ediblər. Qeyd olunub ki, cəmi yarım əsrdə əhalinin sayı bir neçə dəfə artıb. 1970-2020-ci illər arasında dünya əhalisi ikiqatdan çox, qlobal enerji istehlakı təxminən üçqat, mineral hasilatı dördqat və plastik istehsalı təxminən 13 dəfə artıb.



Alimlər qeyd ediblər ki, bu gün planetdəki hər bir insan üçün ildə təxminən yeddi ton mineral hasil olunur. Bu, bir neçə avtomobilin çəkisinə bərabərdir. Adambaşına təxminən 60 kiloqram plastik istehsal olunur, halbuki 1970-ci ildə isə bu rəqəm 10 kiloqramdan az idi. Karbon qazı tullantıları ilə bağlı vəziyyət fərqlidir. Belə ki, 50 il ərzində ümumi emissiyalar ikiqatdan çox artsa da, adambaşına düşən illik göstərici cüzi şəkildə, 3,87 tondan 4,09 tona qədər çoxalıb. Növbəti addım dünyanın demoqrafik trayektoriyasından asılı olacaq.

Tədqiqatçılar gələcəyin iki fərqli vizyonunu nəzərdən keçiriblər.

Ən əlverişli ssenaridə qlobal əhali 2100-cü ilə qədər 6,9 milyarda düşəcək və 2200-cü ilə qədər 4,1 milyarda yaxınlaşacaq. Modelə görə, illik CO emissiyaları 32 milyarddan 16 milyard tona, plastik istehsalı 460 milyondan 54 milyon tona düşə bilər və təbii ekosistemlər tədricən bərpa olunmaq imkanına malik olacaq.

Əks ssenaridə qlobal əhalinin bu əsrin sonuna qədər 11,4 milyarda, 2200-cü ilə qədər isə 21,2 milyarda çatacağı proqnozlaşdırılır. 1970-ci ildən bəri müşahidə olunan tendensiya davam edərsə, illik plastik istehsalı 13 milyard tonu keçə, enerji istehlakı mövcud səviyyələrlə müqayisədə üç dəfə arta və vəhşi təbiət populyasiyaları kritik həddə yaxınlaşa bilər.

Lakin müəlliflər bu rəqəmləri dəqiq proqnozlar kimi təqdim etmirlər. Model tarixi tendensiyaları genişləndirir və gələcək texnoloji irəliləyişləri, siyasət qərarlarını və ya regional fərqləri tam şəkildə nəzərə ala bilmir. Bunun əvəzinə, müxtəlif demoqrafik seçimlərin nəticələrinin nə qədər kəskin şəkildə dəyişə biləcəyini nümayiş etdirmək məqsədi daşıyır.

Tədqiqat məcburi doğum məhdudiyyətlərini müdafiə etmir. Tədqiqatçılar kontrasepsiya və reproduktiv səhiyyəyə daha geniş çıxış, qızlar üçün təhsil və qadınların ailələrinin ölçüsünü təyin etmək qabiliyyətinə əsaslanan könüllü yanaşma təklif edirlər. Məqalədə istinad edilən məlumatlara görə, dünyada 200 milyondan çox qadın hələ də ehtiyac duyduqları ailə planlaşdırma xidmətlərinə çıxış imkanından məhrumdur.

Müəlliflər vurğulayırlar ki, ən varlı ölkələr hədsiz dərəcədə çox resurs tükədir: yüksək gəlirli ölkələr orta hesabla aşağı gəlirli ölkələrə nisbətən adambaşına 13 dəfə çox enerji istehlak edir.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4485**
**Sifariş: 1016**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova